7 iyun 2023 №42 (2011)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Naxçıvanda mədəniyyət sahəsində idarəetmə təkmilləşdiriləcək

Prezident İlham Əliyevin iyunun 5-də imzaladığı sərəncamla "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib.

Sənədin "İnstitusional inkişaf" prioritet istiqaməti üzrə mədəniyyət sahəsində idarəetmənin təkmilləşdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi və mədəniyyət sahəsinin inkişafının təmin edilməsi nəzərdə tutulur. Bu işi muxtar respublikanın Nazirlər Kabineti Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və AMEA ilə birgə icra etməlidir. Buraya mədəniyyət müəssisələrinin fəaliyyətinin optimallaşdırılması və sahənin inkişafı ilə bağlı layihələrin hazırlanması, mədəniyyət müəssisələri tərəfindən əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi daxildir.

**_səh. 2_**

## Millət naminə yaşayanların xatirəsini yaşatmaq

### Tariximizdə dəyərli izlər qoymuş bir soy haqqında sənədli kino hekayəti

Mədəniyyət Nazirliyinin sifarişi ilə "Azərbaycanfilm" kinostudiyasında "Millət naminə. Əbdül Kərim bəy Mehmandarov" bədii-sənədli filmi çəkilib. Filmdə Mehmandarovlar soyunun timsalında tanınmış həkim və ictimai xadim, xeyriyyəçi Əbdül Kərim bəy Mirzə Mustafa bəy oğlu Mehmandarovun (1854-1929) ömür yolu və fəaliyyətinə işıq salınır.






İyunun 5-də Nizami Kino Mərkəzində ekran işinin təqdimat mərasimi keçirildi. Tədbirdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, mədəniyyət nazirinin müavini Murad Hüseynov, millər vəkilləri, mədəniyyət və incəsənət xadimləri iştirak edirdilər.

Azərbaycan Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev çıxış edərək filmi tarixi yaddaşımıza işıq tutan parlaq ekran nümunələrindən biri kimi dəyərləndirdi. O, Mehmandarovlar nəslinin Azərbaycan tarixində və ictimai həyatında rolunun ifadəsi baxımından filmin əhəmiyyətini vurğuladı. Qeyd olundu ki, tarixi-publisistik formada lentə alınan filmdə rejissor foto və videoarxiv materiallarından yaradıcı şəkildə istifadə edib. Filmin özünəməxsus dili və montaj üslubu ilə rejissor çox maraqlı bir forma tapıb.

Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru, Mehmandarovlar soyunun nümayəndəsi Mustafa Mehmandarov Şuşada Mehmandarovlar malikanə kompleksinin yüksək səviyyədə təmir-bərpasına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya ailələri adından təşəkkürünü bildirdi. Dirijor bu xeyirxah addımı təkcə ulu babalarının xidmətlərinə deyil, həm də Azərbaycan tarixinə, mədəni irsinə diqqət və qayğı kimi səciyyələndirdi.

**_davamı səh. 2-də_**

## Ölkəmiz UNESCO-nun 2005-ci il Konvensiyası üzrə konfransda təmsil olunur

İyunun 6-da Parisdə UNESCO-nun "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" 2005-ci il Konvensiyasına Tərəf Ölkələrin 9-cu Konfransı işə başlayıb.




İki ildən bir keçirilən konfransın gündəliyinə konvensiya üzrə Hökumətlərarası Komitənin 2022-2023-cü illər üzrə hesabatı, yaradıcı sənayelərin inkişafı istiqamətində işlər, dövri hesabatların nəzərdən keçirilməsi, Hökumətlərarası Komitəyə seçkilərin keçirilməsi, 2024-2025-ci illər üçün komitənin fəaliyyəti və digər mövzular daxildir.

Konfransda ölkəmiz Mədəniyyət Nazirliyinin və Azərbaycanın UNESCO yanında Daimi Nümayəndəliyinin heyəti ilə təmsil olunur. Qeyd edək ki, Azərbaycan 2019-cu ildə "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" Konvensiyanın Hökumətlərarası Komitəsinə dörd il müddətinə üzv seçilib.

Nümayəndə heyətinin rəhbəri, mədəniyyət nazirinin müavini Səadət Yusifova konfransın açılış sessiyasında çıxış edib. "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" Konvensiyaya yeni qoşulan ölkələri təbrik edən nazir müavini Azərbaycanın bu konvensiyanın dəyər və prinsiplərinə sadiq olduğunu vurğulayıb. Yaradıcı sənayelərin inkişafına artan dövlət dəstəyindən danışan Səadət Yusifova Mədəniyyət Nazirliyi Aparatında bu sahə üzrə ayrıca şöbənin fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

Konfrans 7-8 iyun tarixlərində işini davam etdirəcək.

## Bakıda II Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı keçirilir

### Anar: "Türk dünyasının gəncliyi gələcəyə kitabla getməlidir"

İyunun 5-də – ölkəmizdə ənənəvi qeyd olunan Şairlər Günündə – Bakıda II Türk Dünyası Ədəbiyyat və Kitab Festivalının açılışı keçirildi.

İyunun 11-dək davam edəcək festival Beynəlxalq Türk Müəllifləri Birliyinin təşkilatçılığı, Azərbaycan Yazıçılar Birliyi (AYB), Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Milli Məclisin Mədəniyyət komitəsi, AMEA, Bakı Şəhər İcra Hakimiyyəti, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Beynəlxalq Türk Akademiyası, TÜRKSOY, TÜRKPA, Yunus Əmrə İnstitutu, İLESAM və digər qurumların dəstəyi ilə gerçəkləşir.

Festivalın açılışı Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başladı. Vətən uğrunda canından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.



Sonra Birinci Qarabağ müharibəsi qazilərinin ifasında "Əsgərnamə elegiya" adlı musiqili kompozisiya təqdim olundu. Musiqili kompozisiyadan sonra Vətən müharibəsi iştirakçıları olan şairlər öz şeirlərindən nümunələr səsləndirdilər. Həmin şairlər həm də "İgidlərin sözü" layihəsinin (layihə rəhbəri Nigar Həsənzadə) iştirakçılarıdır.

Açılış mərasimində çıxış edən Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar II Türk Dünyası Ədəbiyyat və Kitab Festivalının əlamətdar bir ildə – Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illiyinə təsadüf etdiyinə diqqət çəkdi.

**_davamı səh. 2-də_**

## Multikulturalizm və tolerantlıq Azərbaycan cəmiyyətinin inkişaf konsepsiyası kimi

Yeni Azərbaycan Partiyası (YAP) və Azərbaycanda Rus İcmasının birgə təşkilatçılığı ilə iyunun 3-də Bakıda "Heydər Əliyev: multikulturalizm və tolerantlıq Azərbaycan cəmiyyətinin inkişaf konsepsiyası kimi" mövzusunda konfrans keçirilib.

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfransa Rusiyadan da qonaqlar qatılıb.

Konfransda çıxış edən YAP sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illər tariximizə sosial-iqtisadi yüksəliş, mədəni intibah və bütövlükdə müstəqil dövlət quruculuğu dövrü kimi həkk olunub. "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq", – deyən Ulu öndərin bu siyasəti Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Bu gün ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələri sülh, əmin-amanlıq və mehribanlıq şəraitində yaşayırlar. Onlar birlikdə Azərbaycanın inkişafına töhfələr verirlər. 44 günlük Vətən müharibəsində qazandığımız şanlı Qələbədə ölkəmizdə yaşayan bütün xalqların, o cümlədən rusəsilli vətəndaşlarımızın payı var.

Diqqətə çatdırılıb ki, Azərbaycanda mövcud olan icmalar, o cümlədən 30 illik yubileyini qeyd edən Azərbaycanda Rus İcması cəmiyyət həyatının müxtəlif sahələrində səmərəli fəaliyyət göstərir, vətəndaş həmrəyliyinin, xalqlar arasında dostluq münasibətlərinin möhkəmlənməsində mühüm rol oynayır. Bu gün Azərbaycanda rus dilində orta ümumtəhsil məktəbləri, ali təhsil ocaqları, universitetlərdə rusdilli bölmələr, rusdilli mətbu orqanlar və digər ictimai-mədəni qurumlar öz fəaliyyətlərini uğurla davam etdirirlər.

**_davamı səh. 3-də_**

## Şəki teatrının "21:15 qatarı" Bakıda

### "Qonaq teatr" layihəsinin növbəti iştirakçısı

Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) təşkilatçılığı ilə həyata keçirilən "Qonaq teatr" layihəsinin növbəti iştirakçısı Şəki Dövlət Dram Teatrı olub. Yaradıcı kollektiv iyunun 5-də ATXİ-nin səhnəsində türk yazarı Toyğun Orbayın "21:15 qatarı" adlı səhnə əsərini təqdim edib.



Əvvəlcə ATXİ sədrinin vəzifə səlahiyyətlərini icra edən Xalq artisti Hacı İsmayılov çıxış edərək Şəki Dövlət Dram Teatrının fəaliyyətindən söz açıb, yaradıcı kollektivi teatrın 90 illiyi münasibətilə təbrik edib. Bildirib ki, bu il çox əlamətdar ildir, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi, Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illiyidir. Bu il eyni zamanda 4 teatrın yubileyidir.

Qeyd olunub ki, Mədəniyyət Nazirliyi və Teatr Xadimləri İttifaqının "Qonaq teatr" layihəsi çərçivəsində bölgə teatrları Bakıya qastrol səfəri edirlər. İlk olaraq bu yaxınlarda Ağdam teatrının yaradıcı kollektivi bu layihədə iştirak edərək şəhidlərimizə həsr olunmuş "Şuşadan gələn səs" tamaşası ilə çıxış edib. İndi isə Azərbaycan mədəniyyətində öz yeri olan Şəki Dövlət Dram Teatrının kollektivi bizim qonağımızdır.

Sonra "21:15 qatarı" tamaşası nümayiş olunub. Tamaşanın quruluşçu rejissoru Elvin Nuri, quruluşçu rəssamı Sahib Əhmədov, geyim üzrə rəssamı Surə İslamova, musiqi tərtibatçısı Zeynəb Xəlilovadır. Rolları Akif Yusifov, Rəhim Qocayev, Lalə Məmməd, Rəsul Məmmədrəhimov ifa ediblər.

Sonda Şəki Dövlət Dram Teatrının 90 illiyi münasibətilə və milli teatr sənətinin inkişafındakı xidmətlərinə görə teatrın kollektivi ATXİ-nin fəxri fərmanı ilə təltif olunub.

## Kino xadimi Tələt Rəhmanovun xatirəsi anıldı



Tələt orta məktəbi bitirdikdən sonra indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olunsa da, atası "xalq düşməni" adlandırıldığından ali təhsil ocağını tərk etməli olub.

Bir müddət sonra Teatr Texnikumuna daxil olub. Çətinliklərlə üzləşən, iş tapa bilməyən Tələt görkəmli Azərbaycan memarı Ənvər Qasımzadənin məsləhəti ilə kinostudiyada çalışmağa başlayıb. O, 60-dan çox filmdə müxtəlif xarakterli irili-xırdalı rolda çəkilib. Bu rollar əsasən epizodik olsa da, özünəməxsusluğu ilə seçilib və sevilib. Tələt Rəhmanov filmlərdə çəkilməklə yanaşı, tədricən film direktoru, rejissor assistenti kimi də çalışıb. Bir çox rejissorlar film çəkməyə başlayanda film direktoru olaraq Tələtlə işləməyə can atırdı. Çünki o, insanları incitməzdi, işində dəqiq və bacarıqlı idi.

**_səh. 6_**

## Küçə və parklarda ifa edən musiqiçiləri dinləyirsinizmi?

Musiqini böyük səhnələrdə ifa edənlərlə yanaşı, xalqa açıq məkanlarda, küçələrdə, parklarda ifa edənlər də az deyil. Paytaxtımızda da belə ifaçılara tez-tez rast gəlirik. Ürəyəyatan musiqini duyan kimi addımımızı saxlayıb onları dinləməyə başlayırıq...

**_səh. 7_**

### Şimali kiprli fotoqrafın Bakıda sərgisi



**_səh. 7_**

### Mədəniyyət Nazirliyi Çingiz Aytmatovun Bakıda ucaldılacaq abidəsi ilə bağlı müsabiqə elan edir

**_səh. 6_**



### Azərbaycanlı dirijor Tailand Kral Orkestrini idarə edib

**_səh. 8_**

№42 (2011)
7 iyun 2023
www.medeniyyet.az

# Bakının müasir memarlıq ansamblında daha bir ünvan



Son illərdə paytaxtda modern üslubda tikilən binalar sırasına daha biri əlavə olunub. Xətai rayonu, Nəcəfqulu Rəfiyev və Süleyman Vəzirov küçələrinin kəsişməsində inşa olunan Kənd Təsərrüfatı Nazirliyinin yeni inzibati binası da müasir memarlığı ilə diqqəti cəlb edir.

Prezident İlham Əliyev iyunun 6-da inzibati binanın açılışında iştirak edib.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov bina barədə dövlət başçısına məlumat verib. Bildirilib ki, yeni binanın tikintisinə 2017-ci ildə başlanılıb və bu ilin iyun ayında başa çatdırılıb. Bina nazirliyin aparatı ilə yanaşı, Aqrar Kredit və İnkişaf Agentliyi, Aqrar Tədqiqatlar Mərkəzi, Aqrar İnnovasiya Mərkəzi və Aqrar İnkişaf Könüllüləri olmaqla 500-ə yaxın əməkdaşın fəaliyyəti üçün nəzərdə tutulub.

Hündürlüyü 12 metr olan foyedə "Əbədiyyət" kompozisiyası nümayiş olunur. Kompozisiyanın müəllifi rəssam-heykəltaraş Rəşad Mehdiyevdir.

Üç hissədən ibarət olan kompozisiyanın rəmzi motivi müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyini əks etdirir.

Kompozisiyada Azərbaycan xalqının həyat fəlsəfəsinə uyğun əbədi dəyərləri, qalib insan ruhunu, zəhməti və bərəkəti, dayanıqlılığı nümayiş etdirən ideyalar əksini tapıb. Mərkəzdə Heydər Əliyevin büstü olan kompozisiyada ağacın budaqları səmaya və sonsuzluğa doğru ucalır. Kufi üslubunda xüsusi bir nizamla yaradılan şəbəkə səmanı ifadə edir. Səmada Ümummilli liderin anadan olmasının 100 illiyini əks etdirən 100 ulduz parlayır.





Ağacla bərabər səmaya ucalan sütunlar ərzaq təhlükəsizliyinin dayanıqlılığını təcəssüm etdirir. Ağacın budaqları kompozisiyanın sağına – qələbə və sülhün bərqərar olduğu bərəkətli torpaqlar əks edilmiş rəsmə doğru uzanır. Yağlı boya ilə işlənən əsərdə əzəmətli dağın və geniş buğda zəmisinin üzərindən səmaya doğru pərvazlanan göyərçinlər 44 günlük Vətən müharibəsində qazanılan Qələbəni müjdələyir.

"Əbədiyyət" kompozisiyasının sol hissəsində torpaqlarımızda yetişən nemətləri təqdim edən insan əlləri heykəli əks etdirilib. Bərəkət və zəhməti təcəssüm etdirən əllər ağacın budaqlarından qidalanır.

Burada "Heydər Əliyev – 100" guşəsi də yaradılıb. Ulu öndərin Azərbaycanda aqrar sahənin inkişafı ilə bağlı gördüyü işlər guşədə geniş əks olunub.

Bina ilə tanışlıq zamanı qeyd olunub ki, 215 otaqdan ibarət işçi mərtəbələrdə əməkdaşların fəaliyyəti üçün hər cür şərait yaradılıb. Binada nazirliyin Elektron İdarəetmə Mərkəzi üçün xüsusi otaq, müasir multimedia vasitələri ilə təchiz olunan konfrans və iclas zalları, həmçinin müxtəlif təyinatlı iclas otaqları, yeməkxana var. Ərazidə 170 avtomobil yerlik dayanacaq yaradılıb.

# Naxçıvanda mədəniyyət sahəsində idarəetmə təkmilləşdiriləcək

## Bölgədəki tarixi abidələrin UNESCO siyahısına salınması üçün də iş aparılacaq...

Prezident İlham Əliyevin iyunun 5-də imzaladığı sərəncamla "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib.

Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı sahəsində 2004-cü ildən etibarən qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası Naxçıvan Muxtar Respublikasında da iqtisadiyyatın inkişafı, yeni iş yerlərinin və müəssisələrin yaradılması, kommunal və sosial infrastruktur təminatı səviyyəsinin yüksəlməsi ilə nəticələnib.

Dövlət proqramları çərçivəsində görülmüş işlər muxtar respublikanın qarşıdakı illərdə də inkişafı üçün geniş imkanlar yaradıb. Bu isə öz növbəsində bölgənin sosial-iqtisadi inkişafı ilə əlaqədar tədbirlərin, həmçinin kompleks proqramların hazırlanmasını və icrasının davam etdirilməsini nəzərdə tutur.

Sərəncamda Azərbaycan Respublikası Nazirlər Kabinetinə üç ay müddətində Dövlət Proqramının 2023–2024-cü illər üzrə, 2024-cü il sentyabrın 1-dək isə 2025–2027-ci illər üzrə tədbirlər planında nəzərdə tutulmuş məsələlərin icrasının təmini üçün daha təfsilatlı tədbirlər planlarının layihələrini Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

Qeyd edək ki, Dövlət Proqramının Tədbirlər Planı ümumilikdə 11 prioritet istiqamətdən ibarətdir.

"Turizmin inkişafı" prioritet istiqaməti üzrə bu sahədə infrastrukturun yaxşılaşdırılması, müxtəlif turizm növlərinin (qış, kənd, eko və s.) inkişaf etdirilməsi və turizm atlasının hazırlanması, turizm və rekreasiya zonalarının yaradılması, həmçinin Naxçıvan Muxtar Respublikasının bəzi tarixi memarlıq abidələrinin UNESCO-nun maddi mədəni irs nümunələri üzrə əsas siyahısına salınması üçün iş aparılması nəzərdə tutulub. Bu iş Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinə və muxtar respublikanın Nazirlər Kabinetinə həvalə olunub.

Bununla bərabər, Naxçıvan Muxtar Respublikasının turizm cəlbediciliyinin artırılması və tarixi memarlıq abidələrinin beynəlxalq səviyyədə qorunması istiqamətində fəaliyyət nəzərdə tutulur.

Dövlət Proqramında bildirilir ki, Naxçıvan Muxtar Respublikasının duz yataqları, mineral suları, tarixi və dini abidələrindən, ekoturizm üçün təbii əlverişli şəraitindən yararlanmaqla, regionun rəqabətqabiliyyətli turizm məkanına çevrilməsi məqsədilə bu sahənin inkişafına yönəlmiş tədbirlər görüləcək. Sağlamlıq turizmi imkanlarının genişləndirilməsi, qış və kənd turizminin, ekoturizmin inkişaf etdirilməsi, turizm infrastrukturunun yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçiriləcək.

"İnstitusional inkişaf" prioritet istiqaməti üzrə mədəniyyət sahəsində idarəetmənin təkmilləşdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi və mədəniyyət sahəsinin inkişafının təmin edilməsi nəzərdə tutulur. Bu işi muxtar respublikanın Nazirlər Kabineti Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və AMEA ilə birgə icra etməlidir. Buraya mədəniyyət müəssisələrinin fəaliyyətinin optimallaşdırılması və sahənin inkişafı ilə bağlı layihələrin hazırlanması, mədəniyyət müəssisələri tərəfindən əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi daxildir.

# Üç nəsil bir musiqi axşamında

İyunun 5-də Beynəlxalq Muğam Mərkəzində "Üç nəsil – bir konsert" adlı musiqi axşamı təqdim olundu.

Konsertdə Xalq artisti, tanınmış violonçel ifaçısı Rasim Abdullayev qızı Ülviyyə Abdullayeva (fortepiano) və nəvəsi Anastasiya Mişula (violin) ilə birgə səhnəni bölüşdülər.



Konsert eyni ailədən olan üç nəsil musiqiçinin səhnədə görüşməsi ilə yanaşı, Ülviyyə Abdullayeva ilə İspaniya rəssam və heykəltaraşı Nani Boronatın 2017-ci ildə əsasını qoyduqları "Centinelas" ("Mühafizəçilər") adlı layihənin davamıdır. Layihənin emblemində Azərbaycan və ispan mədəniyyətinin iki memarlıq simvolu kimi Bakıdakı Şirvanşahlar Sarayı və Qranadadakı Əlhambra Sarayı seçilib.

Layihə üzrə ilk konsert 2022-ci ilin may ayında Münxendə (Almaniya) keçirilib. Həmin layihədə İspaniyadan Manuel de Falla, Enrike Qranados və İsaak Albenisin, Azərbaycandan isə Qara Qarayev və Günay Mirzəyevanın əsərləri səsləndirilmişdi. BMM-də təqdim edilən "Üç nəsil – bir konsert" bu silsilədən Bakıda ikinci konsertdir. Amma bu dəfə Nani Boronatın səhnə heyəti olmadan. Beləliklə, pianoçu Ülviyyə Abdullayeva öz doğma şəhərində "Əlhambradan Şirvanşahlara qədər" layihəsi üçün yeni material təqdim etmək təşəbbüsünü, məsuliyyətini və meyarlarını öz üzərinə götürərək yeni bir proqram təqdim etdi.

Konsertdə Q.Qarayev, A.Qlazunov, O.Zülfüqarov, S.Raxmaninov, A.Piazolla və digər bəstəkarların əsərləri alqışlarla qarşılandı.

# Millət naminə yaşayanların xatirəsini yaşatmaq

*əvvəli səh. 1-də*

AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun direktoru professor Kərim Şükürov Əbdül Kərim bəy Mehmandarovun həyat və fəaliyyəti haqqında məlumat verdi.






Filmin ssenari müəlliflərindən biri, qala-şəhərimiz haqqında çoxsaylı kitab ərsəyə gətirən, "Şuşa" qəzetinin redaktoru Vasif Quliyev Mehmandarovların Azərbaycanın etnogenezində böyük rol oynayan nəsillərdən olduğunu qeyd etdi. Tədqiqatçı müəllifi olduğu "Mehmandarovlar" kitabını 43 ilə yazdığını dedi, maraqlı faktları diqqətə çatdırdı.

Filmin rejissoru, Əməkdar incəsənət xadimi Yavər Rzayev yaradıcı heyətə və ekran işinin ərsəyə gəlməsində əməyi keçən hər kəsə minnətdarlığını bildirdi.

Çıxışlardan sonra "Millət naminə. Əbdül Kərim bəy Mehmandarov" filmi nümayiş olundu. Ekran əsəri Ümummilli lider Heydər Əliyevin "Şuşa təkcə şuşalılar üçün deyil, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir" fikirləri ilə başlanır.

Film XIX əsrin ikinci yarısından etibarən Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm izlər qoymuş Qarabağın ünlü nəsillərindən olan Mehmandarovlar haqqındadır.

Qarabağ hakimi İbrahimxəlil xan Cavanşirin dövründə xanlığın mehmandarı (xanlığa gələn yüksək səviyyəli qonaqları qarşılayıb yola salan) olmuş Mirzə Əli bəylə başlanan Mehmandarovlar soyunun nümayəndələri daha sonra Şuşada, Lənkəranda və Azərbaycanın digər bölgələrində yaşayıblar. General Səməd bəy Mehmandarov isə Azərbaycan Xalq Cümhuriyyətinin müdafiə naziri olub.

Bədii-sənədli filmin əsas qəhrəmanı Əbdül Kərim bəy Mehmandarovdur. O, Peterburq Tibb-Cərrahlıq Akademiyasının məzunu olub, həkimlik fəaliyyəti ilə yanaşı, XX əsrin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı törətdiyi qırğınlara qarşı şuşalıların mütəşəkkil müqavimətinin yaradılmasında mühüm rol oynayıb. Əhməd bəy Ağaoğlu tərəfindən 1905-ci ildə erməni-daşnak terrorizminə və çar istibdadına qarşı yaradılmış "Difai" ("Müdafiə") təşkilatının Şuşa bölməsinə rəhbərlik edib.

Ekran əsərinin rejissoru Yavər Rzayev, ssenari müəllifləri Yavər Rzayev və Vasif Quliyev, operatoru Nadir Mehdiyev, rəssamı Rafiq Nəsirov, bəstəkarı Azər Hacıəsgərli, montaj rejissoru Elşad Rəhimov, prodüseri Nazim Hüseynovdur.

Çəkilişləri Bakıda və Şuşada, o cümlədən Mehmandarovların malikanəsində aparılan filmdə Əbdül Kərim bəy rolunu Əməkdar artist Şövqi Hüseynov canlandırıb.

**Lalə**

# Bakıda II Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı keçirilir

## Anar: "Türk dünyasının gəncliyi gələcəyə kitabla getməlidir"

*əvvəli səh. 1-də*

Türk dünyasından nümayəndələrin bir araya gəldiyi kitab və ədəbiyyat bayramını yüksək dəyərləndirən Anar qeyd etdi ki, türk xalqlarının gəncliyi gələcəyə kitabla getməlidir. Çünki kitab, ədəbiyyat, mədəniyyət nəsilləri tərbiyə edir.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, AMEA-nın vitse-prezidenti akademik Dilqəm Tağıyev, millət vəkilləri, Xalq şairi Sabir Rüstəmxanlı, Cavanşir Feyziyev, Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun Qırğızıstan üzrə layihə rəhbəri Mirbek Karıbayev və başqaları çıxış edərək festivalın əhəmiyyətini yüksək qiymətləndirdilər.

Kitab və ədəbiyyat bayramı gün ərzində müxtəlif layihələrin təqdimatı ilə davam etdi.

Qeyd edək ki, bu il festival daha geniş proqramla kitab və ədəbiyyatsevərlərin görüşünə gəlib. Festival çərçivəsində müxtəlif tədbirlər, film nümayişləri ilə yanaşı, hər gün bir ölkəyə (Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Macarıstan) həsr olunacaq.

Festivalda 50-dən çox nəşriyyat, 30-a yaxın xarici ölkə nümayəndəsi iştirak edir.

Tədbirdə iştirak edən Beynəlxalq Türk Akademiyasının nümayəndəsi Merjandos Badiloğlu (Qazaxıstan) jurnalistlərə müsahibəsində bildirdi ki, II Türk Dünyası Ədəbiyyat və Kitab Festivalında BTA türkşünaslıq və Türk dünyası ölkələrinin ədəbiyyatı ilə bağlı elmi nəşrləri təqdim edir: "Beynəlxalq Türk Akademiyası 17 ildir fəaliyyət göstərir, bu müddət ərzində dünyanın müxtəlif dillərində, o cümlədən Azərbaycan dilində 200-ə yaxın elmi əsər nəşr olunub. Tədbirdən sonra festivalda təqdim olunan nəşrləri Bakıdakı elm və təhsil müəssisələrinin kitabxanalarına hədiyyə edəcəyik. Türk dünyasının kitabları türk xalqlarının yaxınlaşmasına töhfə verir və böyük əhəmiyyət kəsb edir".



Festivalın açılışında Bakıda səfərdə olan Latviya Universitetinin professoru Kaspars Klavinç də iştirak edirdi. Alim bizimlə söhbətində Koreya mədəniyyəti və dili sahəsində fəaliyyət göstərdiyini dedi: "Ancaq Azərbaycanın mədəniyyəti və tarixi ilə də maraqlanıram. Çünki Azərbaycanda müxtəlif mədəniyyətlər birləşir. Bakıya səfərimin məqsədi AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda azərbaycanlı həmkarlarımla əməkdaşlıq əlaqələri qurmaqdır. Belə bir festivalın keçirilməsi böyük təşəbbüsdür, burada hər kəs lazımi nəşri tapa bilər".

Onu da bildirək ki, paytaxtın Hüseyn Cavid prospektində AMEA-nın binasının qarşısındakı parkda təşkil olunan festivalda müxtəlif sahələrə dair nəşrlər, eləcə də rəngkarlıq və qrafika sənəti üzrə əl işləri təqdim edilir.

**L.Azəri**

# Səmərqənd Regional Kitabxana-İnformasiya Mərkəzinə ölkəmizə dair nəşrlər təqdim olunub

Xəbər verdiyimiz kimi, 31 may – 1 iyun tarixlərində Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi və təşkilatçılığı ilə Daşkənd və Səmərqənd şəhərlərində "Azərbaycan musiqisi günləri" keçirilib.

Tədbir çərçivəsində AMM tərəfindən A.S.Puşkin adına Səmərqənd Regional Kitabxana-İnformasiya Mərkəzinə (SRKİM) zəngin kitab kolleksiyası hədiyyə edilib. Kitabxananın oxu zalında həmin kitabların sərgisi açılıb. Sərgi bir ay ziyarətçilər üçün açıq olacaq.

Tədbir çərçivəsində Səmərqənd Regional Kitabxana-İnformasiya Mərkəzinin direktoru Zebinisa Şodieva ilə AMM-in direktoru Samir Abbasov arasında görüş keçirilib. SRKİM ilə Azərbaycan kitabxanaları arasında əlaqələrin qurulması, birgə layihələrin icrası, kitabxanada Azərbaycan fondunun yaradılması müzakirə edilib və bu barədə razılıq əldə olunub.



Sonra qonaqlar SRKİM-in fəaliyyəti ilə tanış olublar. Zebinisa Şodieva AMM ilə sıx əməkdaşlıq etdiklərini və hər il mərkəz tərəfindən Azərbaycana dair nəşrlərin kitabxanalarına hədiyyə olunduğunu bildirib.

əvvəli səh. 1-də

# Multikulturalizm və tolerantlıq Azərbaycan cəmiyyətinin inkişaf konsepsiyası kimi

Milli Məclisin deputatı, Azərbaycanda Rus İcmasının sədri Mixail Zabelin bildirib ki, Heydər Əliyev keçmiş SSRİ respublikaları arasında mehriban qonşuluq münasibətlərinə həmişə böyük əhəmiyyət verir, Rusiya-Azərbaycan əlaqələrinin gələcəyinə nikbinliklə baxırdı. O, müstəqil Azərbaycanın rəhbəri kimi ölkədəki rus icmasının fəaliyyətinə də daim diqqət ayırıb. Qeyd edilib ki, 1993-cü ildə təşəkkül tapan icmanın hazırda 120 min nəfərdən çox üzvü var və bu, Cənubi Qafqazda ən böyük rus icmasıdır.

Vurğulanıb ki, multikulturalizm Ümummilli liderin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən dövlət siyasəti kimi müəyyənləşdirilib. Bu gün Azərbaycanın multikulturalizm və tolerantlıq modeli dünyada nümunə kimi göstərilir.

Konfransda çıxış edən mədəniyyət naziri Adil Kərimli qeyd edib ki, Azərbaycan dövlətinin mədəniyyət siyasətində multikulturalizm amili başlıca istiqamətlərdən biridir. Azərbaycan çoxmillətli və çoxmədəniyyətli bir ölkədir. Bu istiqamətdə son 30 ildə ölkəmizin keçdiyi yola nəzər salmaq Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun strateji baxımdan nə qədər uzunmüddətli və bu gün üçün də nə qədər aktual olduğunu görməyə bir daha imkan verir.

Bildirilib ki, fərqli millət və mədəniyyətlərin bir arada yaşaması və




tərəqqisi mədəniyyət məkanının zənginliyini artırır, müxtəlif fikirləri bir araya gətirərək yaradıcılığı və innovasiyaları təşviq edir. Multikulturalizm və tolerantlıq müasir Azərbaycan cəmiyyətinin yaşam tərzi olmaqla bir sıra etnik, dini, linqvistik aspektlərlə yanaşı, mədəni aspektləri də əhatə edir. Ulu öndərin irəli sürdüyü azərbaycançılıq konsepsiyası birləşdirici ideya kimi mədəniyyət sahəsində yeni çalarlar qazanaraq müasir Azərbaycanın multikulturalizm modelini formalaşdırıb.

Adil Kərimli vurğulayıb ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkədə yaşayan bütün millətlərin və etnik qrupların mədəni dəyərlərinin qorunub saxlanılması və inkişafı istiqamətində sistemli siyasət həyata keçirilir. Ulu öndər Heydər Əliyev tərəfindən dövlət siyasətinin əsası kimi müəyyən edilən multikulturalizm və tolerantlıq Azərbaycan cəmiyyətinin milli ideologiyasının təməl prinsipidir. Təsadüfi deyil ki, Vətən müharibəsində Azərbaycan xalqı bu təməl prinsip əsasında bir yumruq kimi birləşdi, Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfərə imza ataraq ölkəmizin ərazi bütövlüyünü bərpa etdi.

Nazir bildirib ki, torpaqlarımızın otuzillik işğalı dövründə Ermənistan silahlı qüvvələri və vandalları tərəfindən Azərbaycan xalqına, o cümlədən etnik azlıqlarına məxsus mədəni irs nümunələri, tarixi abidələr, mədəniyyət müəssisələri, muzeylər qarət edilib, dağıdılıb və təhqir olunub. Bu gün Azərbaycanda etnik qrupların mədəni irsinin qorunması ilə yanaşı, fərqli dinlərə mənsub olan insanların dini inanc və abidələrinin qorunub saxlanılması da dövlətimizin multikulturalizm və tolerantlıq siyasətinin əsasını təşkil edir.

Konfransda çıxış edən Rusiya XİN-in Həmvətənlərlə işlər üzrə departamentinin direktoru Aleksandr Nurizadə xarici işlər naziri Sergey Lavrovun konfrans iştirakçılarına məktubunu oxuyub.

Həştərxan vilayətinin mədəniyyət və turizm naziri Olqa Prokofyeva çıxışında bildirib ki, multikulturalizm və tolerantlıq hər bir müasir, inkişaf edən dövlətin gələcəyi üçün vacibdir. Azərbaycanla Həştərxan vilayətini çoxmillətli müxtəliflik birləşdirir ki, bu da bizim əvəzsiz irsimiz və üstünlüyümüzdür. Bu səmərəli əməkdaşlığın əsasının Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə qoyulduğunu deyən qonaq Həştərxanda Ümummilli liderin xatirəsinə həsr olunmuş silsilə tədbirlərin keçirildiyini də diqqətə çatdırıb.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi, Arximandrit Aleksiy Nikonorov qeyd edib ki, istənilən xalqın milli kodu bu xalqın dilinə, mədəniyyətinə, adət-ənənəsinə, dininə əsaslanır. Azərbaycanın milli kodu multikulturalizm, tolerantlıq, digər etnik qruplara və dini inanclara hörmət kimi elementləri özündə ehtiva edir. Azərbaycanda müxtəlif mədəniyyətə və konfessiyaya malik insanlar sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Mədəniyyətlərin müxtəlifliyi qarşılıqlı mənəvi zənginləşmə mənbəyinə çevrilir, qarşılıqlı anlaşmanın möhkəmlənməsinə töhfə verir.

## Seuldakı Multikulturalizm Muzeyində Azərbaycan guşəsi yaradılacaq

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Koreya Respublikasına səfəri çərçivəsində Hankuk Xarici Dillər Universitetinin beynəlxalq əlaqələr və maliyyə məsələləri üzrə vitse-prezidenti Tae Yeoub Yangla görüşüb.

Dövlət Komitəsindən bildirilib ki, görüşdə universitetin tarixi, fəaliyyəti barədə ətraflı məlumat verilib, Mərkəzi Asiyada ilk olaraq burada Azərbaycan-türk dillərinin tədrisi kafedrasının fəaliyyət göstərdiyi, kafedranın nəzdində Azərbaycan mərkəzinin yaradıldığı diqqətə çatdırılıb.

Komitə sədri universitetdə Azərbaycan-türk dillərinin tədrisi kafedrasının yaradılmasına görə təşəkkürünü bildirib, ölkələrimiz arasında münasibətlərə töhfə verən “BUTA” Koreya-Azərbaycan Dostluq Assosiasiyası və Koreya Respublikasında müxtəlif ixtisaslar üzrə təhsil alan azərbaycanlı tələbələr barədə danışıb.

Dövlət Komitəsi adından universitetə Azərbaycana həsr olunmuş kitablar hədiyyə edilib.

Fuad Muradov səfər zamanı Seul şəhərindəki Multikulturalizm Muzeyinin fəaliyyəti ilə də tanış olub. Muzeyin direktoru Kim Yun Tae mədəniyyət ocağının fəaliyyəti barədə məlumat verib.

Komitə sədri muzeydə Azərbaycan guşəsinin açılması təklifini diqqətə çatdırıb və bu istiqamətdə əməkdaşlığa hazır olduğunu söyləyib. Muzeyin direktoru bildirib ki, hazırda muzeyin daha böyük yerə köçürülməsi ilə bağlı danışıqlar aparılır və gələcəkdə muzeydə Azərbaycan guşəsi də yaradılacaq. O, Azərbaycana səfər etmək niyyətində olduğunu vurğulayıb.

# Uşaqların bayramı münasibətilə

## Bəstəkar Cahangir Zülfüqarovun müəllif konserti

İyunun 5-də Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) Əməkdar incəsənət xadimi, bəstəkar Cahangir Zülfüqarovun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə müəllif konserti keçirilib.

ABİ-nin sədri Xalq artisti, professor Firəngiz Əlizadə konsertdən öncə çıxış edərək Cahangir Zülfüqarovun çoxşaxəli yaradıcılığından söz açıb. Bildirib ki, o, yaradıcılığında müəllimi – Azərbaycanda simfonizmin banisi Cövdət Hacıyevin və atası – uşaq musiqisinin klassiki sayılan Oqtay Zülfüqarovun irsinə daima sadiq olub. ABİ-nin sədri bəstəkarın qırx ildən artıq müddətdə müxtəlif janrlarda yaratdığı əsərlərin uğurlu taleyini, müəllifin sadə, təvazökar xasiyyətini ayrıca qeyd edib.

ABİ-nin katibi Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova musiqiçilər ailəsinin layiqli təmsilçisi Cahangir Zülfüqarovun sənətinə böyük dəyər verdiyini diqqətə çatdırıb.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Lətifəxanım Əliyeva bəstəkara həsr etdiyi və ABİ-nin dəstəyi ilə yeni nəşr olunmuş broşürdən söhbət açıb.

Çıxışlardan sonra zövqlə tərtib edilmiş konsert proqramı təqdim olunub.

Əvvəlcə Cahangir Zülfüqarovun fleyta və simfonik orkestr üçün “Ümid adası” qravüralarının Xalq artisti Rauf Abdullayevin dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında lent yazısı səsləndirilib. Fleytada solo ifa bəstəkarın qızı, beynəlxalq müsabiqə laureatı Əminə Zülfüqarovaya məxsusdur.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, fəlsəfə elmləri doktoru Həqiqət Məhərrəmovanın ifasında “Sarı gəlin”, “Ağ alma” – piano üçün 2 fantaziya tamaşaçılara xüsusi zövq verib.





Azərbaycan Dövlət Uşaq Filarmoniyası “Şəms” uşaq xorunun kiçik yaş qrupu bədii rəhbər Əməkdar incəsənət xadimi Dilarə Əliyevanın ümidlərini bir daha doğruldub. “Uşaqlar” (söz: Cəmilə Allahverdiyeva), “Ana” (söz: Kamal Baharlı) və “Gözəl Bakı” (söz: Kamal Baharlı) solistlər – Məryəm Əliyeva və Fidan Bağırovanın ifasında səslənib. Yusif Həsənbəylinin sözlərinə yazılmış “Vətən hissi” C.Zülfüqarovun nəvəsi Emili Zəkiyyənin solistliyi, eyni zamanda xorun tərkibində bəstəkarın nəvəsi İnarə Zülfüqarovanın iştirakı ilə alqışlarla qarşılanıb. Azərbaycanda uşaq musiqisinin klassiki Oqtay Zülfüqarovun “Elegiya” əsərini isə ustadın nəticəsi – Ə.Bədəlbəyli adına 23 saylı Musiqi məktəbinin VI sinif şagirdi Əfrasiyab Məmmədov (müəllim – Sevil Lazımova) pianoda ifa edib.

C.Zülfüqarovun uşaqlıq və gənclik dostları Rauf İmanov və Məbud Məhərrəmovun şux xatirələri də görüşə rəng qatıb. Müəllif fleyta və 2 piano üçün bəstələdiyi “Oazis” əsərini fleytada qızı Əminə Zülfüqarova və nəvəsi Əfrasiyabla birgə pianoda ifa etməklə tədbirin son akkordlarını vurub.

Sonra Cahangir Zülfüqarov iştirakçılara təşəkkürünü bildirib.

Musiqişünas Sevda Hüseynovanın aparıcısı olduğu konsert xoş təəssüratla başa çatıb.

# Xalq yazıçısı Anarın 85 illik yubileyi TÜRKSOY-da qeyd olunub

Xalq yazıçısı Anarın anadan olmasının 85-ci ildönümü münasibətilə Ankarada Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY, Azərbaycanın Ankaradakı Səfirliyi, Azərbaycan Yazıçılar Birliyi (AYB) və Türk Ədəbiyyatı Vəqfinin (TƏV) birgə təşkilatçılığı ilə tədbir keçirilib.

İyunun 3-də TÜRKSOY-un ofisində düzənlənən “Anar 85 yaşında” adlı tədbirə yubilyarla bərabər Azərbaycanın və Türkiyənin ədəbiyyat, mədəniyyət xadimləri, digər qonaqlar qatılıb.

TÜRKSOY-un baş katibi Sultan Raev çağdaş türk ədəbiyyatının önəmli adı, Azərbaycan Yazıçılar Birliyinin sədri Anarın anadan olmasının 85-ci ildönümü münasibətilə keçirilən tədbirdə iştirak etməkdən məmnunluğunu bildirib: “Əsrlər boyu istifadə edilən türk dilinin yaşadılmasında ən böyük pay xalqlarımızın zəngin şifahi və yazılı ədəbiyyatı və bunların daşıyıcısı olan şair, yazıçı və ədəbiyyat adamlarıdır. Türk cümhuriyyətlərində fikir və sənət sahəsində yetişmiş çağdaş yazıçı və şairlər müxtəlif mövzulu əsərlərində keçmişimizi və indimizi əks etdirmiş, ortaq mədəni gələcəyimizin üfüqünə ümid işarələri vermişlər.




Onlardan biri də Azərbaycan türklərinin ideya və sənət sahəsində layiqli nüfuz qazanmış müdrik ağsaqqalı Anardır. Onun əsərləri qardaş türk xalqlarının dillərinə və bir çox başqa dillərə tərcümə edilərək türk mədəniyyətinin zənginləşməsinə töhfələr verib...”.

Türk Ədəbiyyatı Vəqfinin başqanı Serhat Kabakçı qurum fəaliyyətə başlayandan bu yana Türk dünyasına könül gözü ilə baxdıqlarını vurğulayıb: “Anarın 85 illiyi münasibətilə təşkil edilən bu tədbir ümumtürk mədəniyyətinin mühüm dəyərlərinin qorunması deməkdir”.

Azərbaycan səfirliyinin müşaviri Eldar Əliyev yazıçının Azərbaycan ədəbiyyatına töhfələrindən danışıb.

Daha sonra çıxış edən Anar TÜRKSOY-da olmaqdan məmnuniyyətini dilə gətirib: “Bu təşkilatın qurulmasına, az da olsa, töhfə vermək mənim üçün xoşdur. Təşkilat yaranmazdan əvvəl çıxışlarımdan birində vurğulamışdım ki, türk dövlətləri arasında UNESCO kimi fəaliyyət göstərən, türk xalqlarının mədəniyyətinə, incəsənətinə önəm verən bir qurum olmalıdır. Bir müddət sonra TÜRKSOY yarananda onun ilk baş katibi mənim də çox yaxın dostum olan məşhur azərbaycanlı sənətçi Polad Bülbüloğlu, ikinci baş katibi isə çox yaxın dostum qazax musiqiçisi Düsen Kaseinov oldu. Təşkilatın hazırkı baş katibi də yaxın dostum, Qırğızıstanın Xalq yazıçısı Sultan Raevdir. Mən musiqiçilərə qarşı deyiləm, amma TÜRKSOY-un bir yazıçı tərəfindən idarə olunması məni çox sevindirir”.

Qırğızıstanla sevgi bağına toxunan Anar ötən əsrdə Stalin repressiyaları zamanı qohumlarının bir qisminin Qırğızıstana sürgün edildiyini bildirib. Qırğızıstan və qırğız xalqı ilə xüsusi yaxınlığını ifadə edən Anar dünya şöhrətli Çingiz Aytmatovla dostluq əlaqələrindən də söz açıb: “Həmişə bir-birimizə kitab hədiyyə edəndə Aytmatov kitabını mənə “Kiçik qardaşım Anara”, mən isə “Böyük qardaşım Çingizə” deyə imzalayardıq”.

Açılış nitqlərindən sonra “Çağın önündə bir yazıçı: Anar” və “İki əsrin qovşağında: Anar” kitablarının təqdimatı olub.

AYB-nin sədr müavini Rəşad Məcid, yazıçılar İmdat Avşar, Pərvin Nurəliyeva, Günel Anarqızı yubilyarın Azərbaycan və Türk dünyası ədəbiyyatında rolu və yaradıcılığı haqqında danışıblar.

Sultan Raev Anara TÜRKSOY-un 30 illik yubiley medalını təqdim edib və milli qırğız geyimi hədiyyə edib.

Bədii hissədə müğənni Aynaz Rəhimzadə tarda Elçin Hətəmli və nağarada Areş Nəzərinin müşayiəti ilə Xalq şairləri Rəsul Rzanın və Nigar Rəfibəylinin şeirlərinə bəstələnmiş mahnıları, eləcə də Azərbaycan xalq mahnılarını ifa edib.

**Mehparə Sultanova**
**Ankara**

# Alanyada turizm və incəsənət festivalı türk xalqlarını bir araya gətirib

2-4 iyun tarixlərində Türkiyənin Alanya şəhərində 21-ci Beynəlxalq Turizm və İncəsənət Festivalı keçirilib. Alanya Bələdiyyəsi tərəfindən “Türkiyə Cümhuriyyətinin 100 illiyində türk cümhuriyyətləri” mövzusunda təşkil olunan festivalda Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva da iştirak edib.

Festivalın açılışı çərçivəsində rəsmi şəxslərin iştirakı ilə Alanyadakı Atatürk abidəsinin önündən başlayan təntənəli yürüş türk xalqlarının folklorunu, milli geyimlərini və musiqi mədəniyyətini əks etdirən bədii proqramın müşayiəti ilə gerçəkləşib.

Mərasimdə Alanya Bələdiyyəsinin sədri Adem Murat Yücel, türk əməkdaşlıq təşkilatlarının rəhbər və nümayəndələri, türk dövlətlərindən rəsmilər və mədəniyyət xadimləri, media mənsubları iştirak ediblər.



Günay Əfəndiyeva çıxışında hər il Alanyada xüsusi mövzu altında keçirilən festivalın bölgənin mühüm turizm və mədəniyyət mərkəzi olduğunu bir daha sübut etdiyini, dünyaya sülh mesajını çatdırdığını vurğulayıb. O, 2023-cü ilin Türk dünyasında əlamətdar il olmasından bəhs edib. Bildirib ki, bu il Türkiyədə Cümhuriyyətin 100 illiyi, Azərbaycanda dahi lider Heydər Əliyevin 100 illiyi, Qazaxıstanda şair və mütəfəkkir Xoca Əhməd Yəsəvinin 930 illiyi, Qırğızıstanda dünya şöhrətli yazıçı Çingiz Aytmatovun 95 illiyidir və bu yubileylər bütün Türk dünyasında qeyd olunur. Bu il həmçinin Azərbaycanın mədəniyyət beşiyi, Qarabağın göz bəbəyi Şuşanın “Türk dünyasının mədəniyyət paytaxtı” ünvanını daşıması ilə əlamətdardır.

Günay Əfəndiyeva rəhbərlik etdiyi Fondun əsas missiyasının da ümumtürk mədəni irsinin mühafizəsi və tanıdılması vasitəsilə türk xalqlarının birlik və həmrəyliyinin gücləndirilməsi olduğunu vurğulayıb.

Çıxışlardan sonra mərasim iştirakçıları müxtəlif türk xalqlarının milli geyimlərinin və mətbəxinin nümayiş olunduğu çadırları ziyarət ediblər.

Festival çərçivəsində Türk dünyasının milli mədəniyyətini, musiqisini, rəqslərini əks etdirən rəngarəng tədbirlər keçirilib.

# Plener əsərlərinin sərgisi keçirilib

Xətai Sənət Mərkəzində plener əsərlərinin sərgisi açılıb. İyunun 3-də açılan sərgidə Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə “Heydər Əliyev İli” çərçivəsində elan edilmiş plenerdə yaradılmış əsərlər nümayiş olunub.



Üç gün davam edən sərgi yaradıcı şəxslərin əl işlərində daha çox təbiətin rənglərini görmək və naturadan işlənmiş əsərlərə ictimai marağın artırılması məqsədilə keçirilib.

Azərbaycan Dövlət Rəsm Qalereyasının direktor müavini Gülşən Qəribli tədbiri açaraq sərgi iştirakçılarını salamlayıb. Xətai Rayon İcra Hakimiyyətinin əməkdaşı Turan Cəfərova, Azərbaycan Rəssamlıq Akademiyasının dosenti Rüstəm Quliyev, rəssam Cəlal Ağayev, Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov çıxış edərək sərginin əhəmiyyəti barədə danışıblar.

Bildirilib ki, sərgiyə 200-dən çox rəssam tərəfindən 500-ə yaxın yağlı boya, akril, sulu boya və s. texnikada yaradılmış əsərlər təqdim edilib. Onların sırasından sərgilənmək üçün 56 rəssamın 79 əsəri seçilib.

Əsərləri nümayiş olunan müəlliflərə sertifikatlar təqdim olunub. Həmçinin sərgidəki əsərlər arasından Xətai Sənət Mərkəzinin və sərgi ziyarətçilərinin seçdiyi bir əsərin müəllifi Raul Hüseynova hədiyyə təqdim edilib.

# "Azərbaycan sevgisi..."

## Bölgələrdə "Heydər Əliyev İli" tədbirləri davam edir...

İmişli rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" adlı sərgi təşkil edilib. Ümummilli liderin 100 illiyi münasibətilə açılan sərgidə Heydər Əliyevin Azərbaycan mədəniyyətinə qayğısını, incəsənət xadimləri ilə görüşlərini əks etdirən fotolar nümayiş olunub.



Füzuli rayon Mədəniyyət evinin təşkilatçılığı ilə "Azərbaycan sevgisi..." adlı konsert proqramı keçirilib. İncəsənət ustalarının çıxışları iştirakçılar tərəfindən maraqla qarşılanıb.

***

Ağsu rayon Mədəniyyət Mərkəzi və rayon A.Cəbiyev adına Bico kənd tam orta məktəbinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və müasir, müstəqil Azərbaycan" adlı konsert proqramı keçirilib. Mərkəzin "Qönçə" xalq çalğı alətləri ansamblı solistlərinin ifalarında səsləndirilən bir-birindən rəngarəng mahnılar, məktəblilərin şeir kompozisiyaları və rəqsləri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

***

Şəki şəhər 4 nömrəli Uşaq musiqi məktəbində Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş V, VI, VII sinif şagirdləri arasında musiqi ədəbiyyatı fənnindən bilik yarışması keçirilib. Qalib komanda üzvlərinə diplomlar, digər iştirakçılara tərifnamələr verilib.

***



Gəncə Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə "Tarix yaradan insan" adlı tədbir keçirilib. Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının "Göygöl" Mahnı və Rəqs Ansamblı, Gəncə şəhər Uşaq incəsənət məktəbi vokal sinfinin şagirdləri musiqili proqramla çıxış ediblər. Proqramda xalq və bəstəkar mahnıları, eləcə də Ulu öndərin çox sevdiyi "Küçələrə su səpmişəm" və "Alagöz" mahnıları ifa olunub.

***

Göygöl rayon Xaqani kənd Uşaq musiqi məktəbinin təşkilatçılığı ilə rayon Heydər Əliyev Mərkəzində "Əbədi lider" adlı konsert proqramı keçirilib. Məktəbin şagird və müəllim kollektivi tərəfindən müxtəlif janrlarda musiqilər səsləndirilib.

***

Biləsuvar şəhər O.Əkbərov adına Uşaq incəsənət məktəbi Heydər Əliyevin 100 illik yubileyi münasibətilə N.Gəncəvi adına 1 saylı tam orta məktəbdə konsert proqramı ilə çıxış edib.

***

Lənkəran RMİ və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Tofiq Quliyev adına 12 nömrəli Musiqi məktəbinin birgə təşkilatçılığı ilə Lənkəran şəhər Mədəniyyət Mərkəzində Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Ulu öndərin həyat yolu və siyasi fəaliyyəti haqqında məlumat verilib, videoçarxlar nümayiş etdirilib. Sonra məktəbin şagird və müəllim kollektivi tərəfindən konsert proqramı təqdim olunub.

***



Saatlı rayon Mədəniyyət Mərkəzi və Saatlı şəhər Bülbül adına Uşaq musiqi məktəbinin birgə təşkilatçılığı ilə "Böyük ömrün anları" adlı intellektual yarış keçirilib. 6 komandanın iştirak etdiyi yarışda qalib komanda diplomla mükafatlandırılıb.

***

Qazax Tarix-Diyarşünaslıq Muzeyi və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Qazax rayon komitəsinin birgə təşkilatçılığı ilə dəyirmi masa keçirilib. Çıxış edənlər həmkarlar təşkilatlarının inkişafında Heydər Əliyevin xidmətlərindən danışıblar.

# Lənkəranda uşaq kitabı festivalı

1-4 iyun tarixlərində Lənkəranda açıq havada uşaq kitabı festivalı keçirilib. Festival Lənkəran Şəhər İcra Hakimiyyəti, Lənkəran RMİ və "Secret" kitab evinin təşkilatçılığı, Lənkəran-Astara Regional Təhsil İdarəsi və Lənkəran Dövlət Dram Teatrının dəstəyi ilə gerçəkləşib.



Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov və Lənkəran RMİ-nin rəisi Şahin Şahbazov sərgi ilə tanış olub, uşaqlarla söhbət edərək onları bayram günü münasibətilə təbrik ediblər.

Festivalda uşaq ədəbiyyatı nümunələrinin endirimli qiymətlərlə satışı həyata keçirilib. Bundan başqa, festival çərçivəsində uşaqlar üçün ustad dərsləri, "face-art", əyləncəli və hədiyyəli oyunlar təşkil olunub.

# İrəvan Dövlət Azərbaycan Dram Teatrının bölgələrə qastrolu davam edir

Xəbər verdiyimiz kimi, C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı "Heydər Əliyev İli" çərçivəsində bölgələrə qastrol səfərinə çıxıb. Səfər regional mədəniyyət idarələrinin təşkilatçılığı ilə həyata keçirilir.

Qocaman sənət ocağı qastrola şair-dramaturq İftixar Piriyevin "Nurlu ömrün anları" mənzum tamaşasının nümayişi ilə mayın 22-də Oğuz rayonunda başlayıb. Ulu öndər Heydər Əliyevin ömrünün parlaq anlarının təcəssüm olunduğu səhnə əsəri mayın 30-da Ağdaş və Göyçay rayon Heydər Əliyev mərkəzlərində, mayın 31-də isə Ucar rayon Heydər Əliyev Mərkəzi və Zərdab rayon Mədəniyyət Mərkəzində nümayiş olunub.

"Nurlu ömrün anları" mənzum tamaşası digər şəhər və rayonlarda da nümayiş olunacaq.

# Dünya sizinlə gözəldir!

Beynəlxalq Uşaqların Müdafiəsi Günü (1 iyun) bölgələrdə rəngarəng tədbirlərlə qeyd olunub.

Tərtər Olimpiya İdman Kompleksində "Uşaqlar bizim gələcəyimizdir!" adlı uşaq yaradıcılıq festivalı keçirilib. Rayon İcra Hakimiyyəti, Qarabağ Regional Təhsil İdarəsi və Bərdə RMİ-nin birgə təşkilatçılığı ilə keçirilən festivalda ümumtəhsil məktəblərinin ibtidai sinif şagirdləri, məktəbəqədər və məktəbdənkənar müəssisələrin uşaqları iştirak ediblər. Onlar rəqs və musiqi nömrələri ifa edib, şeirlər söyləyib, fleşmoblar göstəriblər. Festivalda fəal iştirak edən kollektivlərə təşəkkürnamələr təqdim olunub.

***





Zaqatala rayon Mədəniyyət Mərkəzində Zaqatala rayon Xalq teatrı tərəfindən şəhid və qazi övladları üçün "3 dəcəl keçi balası" adlı nağıl-tamaşa nümayiş olunub.

***

Goranboy Dövlət Rəsm Qalereyası əlamətdar gün münasibətilə keçirilən ümumrayon tədbirində uşaqların rəsm əsərlərindən ibarət sərgi təşkil edib.

***





Abşeron Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, rayon Mədəniyyət Mərkəzinin dəstəyi ilə Xırdalan şəhər Heydər Əliyev adına mədəniyyət və istirahət parkında keçirilən festivalda Abşeron rayon uşaq incəsənət, ümumtəhsil məktəblərinin və məktəbəqədər tədris ocaqları kollektivlərinin ifasında bir-birindən maraqlı çıxışlar təqdim olunub.

***

Şəki RMİ-nin təşkilatçılığı və Şəki Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə Bəxtiyar Vahabzadə adına istirahət və mədəniyyət parkında "Hər birimiz bir çiçək" adlı konsert keçirilib. Şəhər Uşaq incəsənət məktəbi və ümumtəhsil məktəblərinin şagirdləri mahnı və rəqslərlə tamaşaçıların könlünü oxşayıblar.

***

Masallı Dövlət Rəsm Qalereyası və rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Həyatımızın bənövşələri" adlı tədbir keçirilib. Uşaqlar şeirlər söyləyib, əyləncəli oyunlar oynayıb, rəqs ediblər. Şagirdlərin muzey və qalereyaya ekskursiyası təşkil olunub.

***






Ağcabədi şəhərindəki Heydər Əliyev adına mədəniyyət və istirahət parkında keçirilən festivalda isə Ağcabədi RMİ-nin tabeliyində olan musiqi məktəbləri tərəfindən konsert proqramı təqdim olunub.

***

Sabirabad Rayon İcra Hakimiyyətinin təşəbbüsü, Sabirabad RMİ və Mil-Muğan Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Sabirabad şəhər Ü.Hacıbəyli adına Uşaq musiqi məktəbinin şagird və müəllim heyətinin ifasında musiqilər səsləndirilib. Tədbir müxtəlif cizgi film personajlarının uşaqları əyləndirən rəngarəng çıxışları ilə başa çatıb.

***

Ağdaş rayon Mədəniyyət Mərkəzinin uşaqların bayramı münasibətilə təşkil etdiyi tədbirdə rəsm dərnəyi üzvlərinin əsərlərindən ibarət sərgi nümayiş olunub. Sonra uşaqların ifasında şeirlər səsləndirilib, mahnı və rəqs nömrələri təqdim edilib.

***

Ağstafa rayon Mədəniyyət Mərkəzində "Dünya sizinlə gözəldir!" adlı tədbir keçirilib. Tədbirdə "Göyçək Fatma" tamaşası nümayiş etdirilib. Ağstafa Mədəniyyət Mərkəzinin əməkdaşları və Ağstafa Gənclər evinin gənc könüllülərinin rol aldığı tamaşa maraqla izlənilib.

# Kürdəmir RMİ-nin nəşr etdiyi kitablar Bakıda festivalda təqdim olundu

Xəbər verdiyimiz kimi, 5-11 iyun tarixlərində paytaxtın Hüseyn Cavid prospektində, AMEA-nın binasının önündəki parkda II Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı keçirilir.

Festival çərçivəsində iyunun 5-də Kürdəmir Regional Mədəniyyət İdarəsinin (RMİ) nəşr etdiyi "Nizami Gəncəvinin əsərlərinin el variantları", "Nizami Gəncəvinin poetik portreti", "Yeni bir səhər" və "Zəfərin Amili" kitablarının təqdimatı keçirildi.

"Nizami Gəncəvinin əsərlərinin el variantları" kitabının tərtibçisi, redaktoru və izahların müəllifi Fərid Hüseyn qeyd etdi ki, nəşrdə mütəfəkkir şairin əsərlərinin folklorda, nağıllarda, dastanlarda özünə həyat qazanmış süjetləri toplanıb. Kitabda sovet dövründə ayrı-ayrı nəşrlərdə yer alan əsərlər, folklor nümunələri ilk dəfə sistemli şəkildə bir araya gətirilib.



"Nizami Gəncəvinin poetik portreti" kitabı haqqında tərtibçi və redaktoru, yazar Ramil Əhməd məlumat verdi. Bildirdi ki, kitab XX-XXI əsrlərdə Nizamiyə ithaf olunan şeirləri üzə çıxarmaq məqsədilə hazırlanıb. İthaf şeirlər müəlliflərin ayrı-ayrı kitablarından, qəzet və jurnal səhifələrindən toplanaraq ilk dəfə sistemli şəkildə təqdim edilir. Ölümündən əsrlər sonra belə Nizaminin çağdaş şairlərə təsiri, "Xəmsə"sinin ilham qaynağı olması ədəbi təsir, ədəbi varislik baxımından böyük əhəmiyyət kəsb edir.

"Yeni bir səhər" kitabının müəllifi Beyləqan rayon Niyazi adına Uşaq musiqi məktəbinin müəllimi Aygün Bayramlıdır. O qeyd etdi ki, "Şuşa İli"nə ithaf olunan kitab şeirlər toplusudur. Nəşrdə şeirlər "Zəfər yolu", "Səni gözləyirəm" və "Bu gün yeni bir səhər" başlıqları altında verilib.

"Zəfərin Amili" kitabı 44 günlük Vətən müharibəsinin şəhid çavuşu Amil Hüseynova və "Şuşa İli"nə həsr olunub. Müəllifi şəhidin həyat yoldaşı, Füzuli Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Xalisə Məmmədovadır. O, kitabın ərsəyə gəlməsindən danışdı. Kitab müharibədə yaşananların bir qadının həyatında nələri dəyişdiyini anladır.

Sonda AYB-nin mətbuat katibi Xəyal Rza çıxış edərək müəlliflərə təşəkkürünü bildirdi, onlara hədiyyələr təqdim etdi.

Qeyd edək ki, "Nizami Gəncəvinin əsərlərinin el variantları", "Nizami Gəncəvinin poetik portreti" kitabları 2021-ci ildə, "Yeni bir səhər", "Zəfərin Amili" kitabları isə 2022-ci ildə işıq üzü görüb. Nəşrlərin layihə rəhbəri və ön sözlərinin müəllifi Kürdəmir RMİ-nin rəisi, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Xudanlıdır.

**Hazırladı: N.Məmmədli**

# Qəzalı vəziyyətə düşən Dairəvi qala bərpa olunur



Lənkəran şəhərində yerləşən, el arasında Zindan qalası kimi tanınan Dairəvi qala qəzalı vəziyyətə düşüb. Dairəvi qala sonuncu dəfə 2006-cı ildə bərpa olunub. Lakin sonradan tarixi abidənin damında yaranmış qəzalı vəziyyət nəticəsində qalaya ciddi ziyan dəyib. Hazırda qalada təmir-bərpa işlərinə başlanılıb.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən bildirilib ki, ölkə ərazisindəki tarix-mədəniyyət abidələrində monitorinqlər aparılır, onların faktiki durumu, texniki vəziyyəti öyrənilir. Lənkərandakı Dairəvi qala dam örtüyünün çökməsi ilə bağlı qəzalı vəziyyətə düşüb, hazırda bununla bağlı qalanın ətrafında və içərisində təmizlik, abadlıq işləri görülür, qalanın mühafizəsi istiqamətində zəruri tədbirlər həyata keçirilir.

XVIII əsrin ikinci yarısına aid Dairəvi qala Lənkəran qala sisteminin cənub tərəfdən dayaq məntəqəsi olub. XIX əsrin əvvəlində bölgənin rus qoşunlarının işğalından sonra tikili həbsxana kimi istifadə edilib. Dairəvi qalanın hündürlüyü 20 metr, diametri 72 metr, istinad divarlarının qalınlığı aşağı ətrafda 2,8 metr, yuxarıda isə 1,5 metrdir.

Dairəvi qala Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli qərarı ilə ölkə əhəmiyyətli tarixi abidə hesab olunur və dövlət tərəfindən mühafizə edilir.

# Basqal qoruğunda müasir turizm infrastrukturu yaradılır

İsmayıllı rayonunun Basqal qəsəbəsində ölkə başçısının "Basqal Dövlət Tarix Memarlıq Qoruğu haqqında" 2018-ci il 3 oktyabr tarixli sərəncamından irəli gələn tapşırıqların icrası məqsədilə Dövlət Turizm Agentliyi (DTA) tərəfindən turizm infrastrukturunun yaradılması üçün mərhələli şəkildə təmir, tikinti və bərpa işləri aparılır.

2022-ci ilin avqust ayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada aparılan işlərlə tanış olublar.

İlkin mərhələdə Basqal qəsəbəsindəki bazar meydanı ərazisində XVII əsrə aid tarixi hamam bərpa edilib, 7 emalatxana təmir olunub. İkinci mərhələdə bazar meydanı ərazisində qoruq üçün inzibati bina tikilib, ərazidə abadlıq işləri aparılıb. Küçələrin 1600 metrlik hissəsində divarlar, döşəmələr, qapı və darvazalar bərpa olunaraq tarixi mühitə uyğunlaşdırılıb, küçələr işıqlandırılıb. Turizm məlumat mərkəzi tikilərək istifadəyə verilib.

Növbəti mərhələ üzrə görüləcək işlər barədə iyunun 5-də DTA-nın sədri Fuad Nağıyevin İsmayıllının Basqal qəsəbəsində vətəndaşlarla görüşündə söhbət açılıb. Sakinləri maraqlandıran suallar cavablandırılıb, onların fikirləri dinlənilib və müvafiq tapşırıqlar verilib.

Vətəndaşlarla görüşdə İsmayıllı rayonunun icra başçısı Nahid Bağırov da iştirak edib.

DTA-dan bildirilib ki, növbəti mərhələ üzrə Şeyx Məhəmməd və Hacı Bədəl məscidlərinin bərpası, Basqal Mədəniyyət evinin əsaslı təmiri, keçmiş məktəb binasının (çoxtəyinatlı turizm mərkəzi) əsaslı təmiri, 6 tarixi evin bərpası planlaşdırılır. Bununla yanaşı, Basqala səfər edən turistlərin sayı artan templə davam etdiyindən, Basqal meydanından Basqal tarixi qəbiristanlığa gedən yolun abadlaşdırılaraq turizm marşrutuna əlavə olunması, "Partizan Məmmədin evi"nin təmir olunaraq muzeyin yaradılması və digər işlər nəzərdə tutulur.

# Meksika səfiri Bakı Xoreoqrafiya Akademiyasının qonağı olub

**Meksikanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mariya Viktoriya Romero Kabalyero Bakı Xoreoqrafiya Akademiyasının (BXA) qonağı olub.**



BXA-nın rəhbərliyi tərəfindən diplomata akademiyanın tarixi, fəaliyyəti, tədris prosesi, beynəlxalq əlaqələri və təhsil ocağının tələbələrinin müsabiqə və festivallarda iştirakları barədə ətraflı məlumat verilib.

Xanım səfir də öz növbəsində Bakı Xoreoqrafiya Akademiyasında olmasından məmnunluğunu bildirib. O, akademiyanın profilinə uyğun Meksikada fəaliyyət göstərən təhsil ocaqları arasında əməkdaşlığın qurulmasına dəstək göstərəcəyini vurğulayıb.

Daha sonra səfir akademiyanın sinif otaqlarını, dərs zallarını gəzərək tədris prosesi ilə yaxından tanış olub.

# Dövlət Uşaq Filarmoniyasının hesabat konserti

**Dövlət Uşaq Filarmoniyası bu il də ənənəsinə sadiq qalaraq Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə "Sizi gözləyirik" adlı konsert proqramını təqdim edib.**

Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəsində təşkil olunan konsertdə Uşaq Filarmoniyasının müxtəlif dərnəklərindən 100-dən çox uşaq çıxış edib.



Bir-birindən maraqlı, rəngarəng səhnə geyimləri və gözəl musiqi nömrələri ilə seçilən proqram tamaşaçıların alqışları ilə qarşılanıb. Dövlət Uşaq Filarmoniyasının dərnək üzvləri olan uşaqlar üçün tədris ilinin sənət hesabatı sayılan konsertdə onlar öyrəndiklərini, yeni bacarıqlarını səhnədə tamaşaçılarla bölüşüblər.

# Respublika Uşaq Kitabxanası festivalda iştirak edib

**F.Köçərli adına Respublika Uşaq Kitabxanası Heydər Əliyev Mərkəzinin parkında keçirilən Uşaq festivalında iştirak edib.**

Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan tədbirlər çərçivəsində təşkil edilən və 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunan festival zamanı mərkəzin parkı uşaq şəhərciyini xatırladıb. Park müxtəlif mövzu və əyləncə növləri üzrə zonalara bölünüb. Burada balacalara bir-birindən maraqlı və fərqli əyləncələr, maarifləndirici proqramlar təqdim olunub. Hər uşağın asudə vaxtını səmərəli keçirməsinə, istedadını nümayiş etdirməsinə imkan yaradılıb.



Respublika Uşaq Kitabxanası üçün ayrılmış zonada uşaq yazarları ilə görüşlər təşkil edilib. Həmçinin eşitmə və nitq məhdudiyyətli uşaqlar üçün jest dilinə tərcümə olunmaqla uşaq yazarları Mehriban Nağıyeva, Gülzar İbrahimova, gənc yazar Fidan Şəmsizadənin iştirakı ilə "Oxu saatı" keçirilib. Uşaqlar müxtəlif mövzulu şeirlər söyləyiblər.

Festival çərçivəsində müxtəlif interaktiv oyunlarda, "Özün çək, özün rənglə", "Nağıl bilicisi" adlı müsabiqələrdə iştirak edən və qalib olan hər bir uşağa kitabxananın təsis etdiyi "Göy qurşağı" jurnalı, əlfəcinlər, kitablar hədiyyə edilib. Həmçinin "face-art" üzrə rəssam müxtəlif nağıl qəhrəmanlarını uşaqların simasında çəkməklə onları sevindirib.

# Balaca kişilər və böyük qəhrəmanlar

*Yeri parçalayıb əzəmətiylə*
*Torpaqdan elə bil divlər qalxdılar...*

**O tarixi anları, hər birimizin ruh olaraq bədənimizi tərk edib səngər-səngər dolaşdığımız, qəlpə-qəlpə "yaralandığımız", torpaq olub qarış-qarış "azad" olduğumuz vaxtda yazıçı-dramaturq İlqar Fəhminin "Balaca kişilər" adı verdiyi igidlik vəsfi duyğularımıza qol-qanad verdi.**

Əməkdar artist, Dövlət Gənc Tamaşaçılar Teatrının quruluşçu rejissoru Nicat Kazımovun səsləndirdiyi misralar cəbhədən gələn acılı-şirinli, sevincli-kədərli, qaralı-ağlı xəbərlərin fonunda ayrı bir duyğu burulğanı yaratmışdı.

*Yox, əlli yaş azdı, yüz yaş,*
*beş yüz yaş*
*Bircə saniyədə qocalır adam.*
*Səngərdən qalxanda,*
*öz boyundan da*
*Beş yüz dəfə artıq ucalır adam...*

Canı, qanı Vətən torpağına qarışa-qarışa yaddaş olan, sirdaş olan, əbədiyyət olan oğulların ədəbiyyata dönüşü idi bu şeir. Odur ki, eləcə poetik söz olaraq qala bilməzdi. Qalmadı da. Nəticədə sonsuzluğa uzanıb, bizləri vətənsizlik əzabından qurtarıb, didərginlik girdabında sıxılmağa qoymayanlar haqqında səhnə nümunəsinə çevrildi.

Beləcə, Vətənə sədaqət andı içən böyük igidlərə həsr olunan "Balaca kişilər" səhnəyə çıxaraq bizə bir də oradan səsləndilər...

Vətən sevdalı, şəhid ehtiramlı, qazi qürurlu tamaşa bizi mətləbdən uzaqlaşmağa bir an belə qoymadı. 44 günlük savaşdan bəhs edən tamaşada ən vacib məqam onun yüksək vətənpərvərlik yükü, emosional təsir imkanı, təbii təsvir forması və səmimi ifadə üslubudur. Heç bir pafos, heç bir vəziyyətə görə çılğın əlavələrdən istifadə olunmamışdı. Tərtibatdan replikalara, dialoqlardan ən kəskin təsvir elementlərinə qədər hər nəsnə bizi iki zaman arasında qoyurdu: uzaq keçmiş və yaxın dünən.

Tamaşanın quruluşçu rejissoru Nicat Kazımov, quruluşçu rəssamı Vüsal Rahimdir. Rolları Əməkdar artistlər Şövqi Hüseynov, Rasim Cəfər, Elnur Bəhramxan, aktyorlar Bəhram Əliheydər, Rəşad Səfərov, Araz Pirimov, Xaliq Bəkirov, Hüseyn Bayramov, Ümman Budaqov, Nurlan Süleymanlı, İlhan Sadıqov, Ramiq Nəsirov, Müşfiq Əliyev, Ceyhun Məmmədov, Anar Seyfullayev, Mirzəağa Mirzəyev ifa edirlər.





Qeyd etdiyim kimi, tamaşa zaman üçün qısa, tarix üçün böyük nəticələr hasil edən 44 günlük İkinci Qarabağ savaşının gənc qəhrəmanlarına həsr olunub. Onlar müharibəni o ana qədər kitablarda oxuyub, filmlərdə izləmiş, döyüşü kompüter oyunlarında görmüş, Vətən, ölüm, şəhadət haqqında fikirləri sosial şəbəkələrdə oxuyub, patriotik söz savaşında itib-batan rəylərdən oxumuşdular. Hələ nə yatıb, nə yuxu görmüşdülər ki?!

Cəmi 4-5 ayın əsgərləri – daim tarixi şəxsiyyətləri mühakimə edə-edə onlara həm də bəraət verməyə çalışan tarix müəllimi, Rejissorluq fakültəsinin böyük kino arzulu məzunu, əmisi oğlunun qisasını almaq üçün düşmənə kini ürəyində böyüdə-böyüdə məqam gözləyən, şuşalı ola-ola Şuşa həsrətlisi, heç vaxt görmədiyi atasına qovuşmaq arzulu internat sakini, nişanlısını gözü yolda qoyub, toy günlərini saya-saya xəyallarda xoşbəxt olan aşiq, Yaradan ilə Vətən sevgisini eyni tarazlıqda saxlayan dindar, qısası, bir qabdan yemək yeyib bir-biri ilə ən sadə arzularını belə sevə-sevə bölüşən balaca kişilər birdən-birə müharibə alovunun tam ortasına düşürlər.

Tamaşa da elə beləcə başlayır: düşmənin yeni postunu ələ keçirib, növbəti əraziləri azad edən xüsusi təyinatlı qüvvələrin döyüşçüləri yeni mövqelər üçün irəli getməlidirlər. Posta nəzarət gənc əsgərlərə tapşırılır. Bir də yaralı zabitə. Beləcə, yaralı zabit ilə gənc əsgərlər baş-başa qalırlar.

Hadisələr də bundan sonra başlayır. Posta erməni əsgər soxulur, ardınca gözlənilməyən qonaqlar – gizlənmiş həmlə qruplarının aramsız hücumları başlayır. Bayaqdan postun kənarındakı düşmən cəsədlərindən qorxub iyrənən, erməni əsirə "Qarabağ Azərbaycandır!" dedirdən, yeni postu özləri alıbmış kimi pozalar verib, sosial şəbəkələrə şəkillər göndərənlər çətin vəziyyət qarşısında qalırlar.

Düşmən sayı çox, əlavə qüvvənin gəlişi də xeyli gec. Amma bir yol da var: qoyub getmək. Bu barədə düşünənlər də olur. Bu işdə erməni əsirin "əməyi" lap çox olur. Hə, bir də "Anam mənim ölümümü bilsə, ürəyi partlayar", "Mən toyumun olmasını istəyirəm", "Qarabağ haqqında film çəkməliyəm" kimi "məsum" səbəblər. Amma bu qorxu və həyat eşqindən ən üstə olan başqa bir duyğu – Vətənə sevgi ağır basır və balaca kişilər sonadək vuruşurlar.

Burada erməni əsirin hiyləsinin qurbanı olan da, açıq döyüşdə şəhadəti dadan da, ani zəfəri qeyd edəndə snaypera tuş gələn də, ilk həmlədə kontuziya alıb ürəyində və dilində Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətai, Gəncə xanlığının sonuncu hökmdarı Cavad xan, Qarabağın hökmdarı İbrahim Xəlil xan, Bakı hakimi Hüseynqulu xanla dərdləşib-döyüşən əsgər də qəhrəman olur.

Nəticə olaraq biz bir anın içində böyüyən, dəyişən və qəhrəman kimi əbədiləşən balaca kişiləri görürük. Az qala hər birimizin həyatda görüb, zamansız itkisi ilə barışmadığımız Vətən daşına çevrilən igidləri.

Tamaşanın emosional təsiri yüksəkdir. Hərəkət, tərtibat, musiqi həlli və ən əsası, rejissorun fərqli zamanlar arasında sinxron rabitəsi və bu əlaqələndirmədəki fakt yığınından qaçmaqla həm də zaman və şəxsiyyətlərin təsviri yaxşı düşünülüb. Məsələn, tamaşaçı bir-biri ilə dialoqa gələ bilməyib, əsrlərdi bir-birini ittiham edən xanları da, vahid dövlət yaratmaq üçün minlərlə qurbanlar verən şahları da, böyük amallar üçün dəfələrlə qırğına verilən sadə adamları da zamanın süzgəcindən keçirir. Beləcə, bizə miras qalan düşmən və onunla mübarizəmizdəki hələlik son döyüşdə hər kəs nə babaları qınayır, nə də miras qalan yükü sabaha saxlamaq istəyir.

Tamaşanın tərtibatı – post, sağ və sol kulislərdəki qala qapısı xarakterli tarixi keçidlər və mərkəzdə qurulub kökü zala yayılan ağac çoxqatlı tərtibatın sadə və məzmunlu təsvirini verir. Mizandan mizana hər kəs – qala qapılarından çıxıb posta qalxan şah və xanlar da, şəhid olduqdan sonra işığa qovuşan əsgərlər də ağacın gövdəsindən keçərək gedirlər. Sadə tərtibatın ən təsirli izharı torpaq üçün canından keçənlərin orada əbədi kök salacaqlarına və bütün zamanlarda vahid bədən və ruh kimi qalacaqlarına işarədir.

Aktyor oyununa gəlincə, ayrılıqda müqayisə aparmaq bir az çətindir. Çünki biz burada ifaçılıq məharəti, aktyorların fərdi bacarıq və təsir imkanlarını ayrılıqda nümayişindən çox kollektiv bir iş gördük.

Doğrudur, tamaşanın müəyyən elementləri, dramaturji xəttindəki qüsurları da yox deyildi. Sadəcə, bu bir səhnə təcrübəsi və emosionallığın diktəsi ilə hasil olan işdir deyə istənilən mühakimə və müqayisə qüsurlu ola bilər.

Onu da qeyd edək ki, İlqar Fəhminin "Balaca kişilər" poeması 44 günlük Vətən müharibəsi dövründə ərsəyə gəlib. Az sonra Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının Vətən müharibəsi mövzusunda elan etdiyi müsabiqədə qalib olub. Deməli, digər teatrlar da belə müsabiqə təşəbbüsləri irəli sürüb, yeni səhnə işlərinin, bu mövzularda tamaşaların səbəbkarı ola bilərlər...

**Həmidə**

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



**Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.**

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (38)

### 1984-cü il 6-7 sentyabr

Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Bakıya növbəti gəlişi zamanı bir sıra orta ümumtəhsil və texniki peşə məktəblərinin vəziyyəti, tədris prosesi ilə tanış olub.

### 1985-ci il 22-23 fevral

Azərbaycandan SSRİ Ali Sovetinə deputatlığa namizəd göstərilən Heydər Əliyev Bakıda bir sıra görüşlər keçirib, o cümlədən Lenin adına Sarayda (indiki Heydər Əliyev Sarayı) seçicilərlə görüşüb.

### 1985-ci il 1 aprel

Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Macarıstanın Moskvada keçirdiyi milli sərgisinin təntənəli açılış mərasimində çıxış edib.

### 1986-cı il 31 iyul

İki dəfə Sosialist Əməyi Qəhrəmanı Heydər Əliyevin Naxçıvanda büstü qoyulub.

Heydər Əliyev Sosialist Əməyi Qəhrəmanı adına 1979-cu və 1983-cü illərdə layiq görülmüşdü. Bu adla iki dəfə təltif olunanların vətənində sağlığında büstü qoyulurdu. Büstün müəllifi görkəmli heykəltaraş Xalq rəssamı Ömər Eldarov müsahibələrindən birində söyləyir ki, Heydər Əliyev məsuliyyətli bir insan kimi bu məsələyə də çox diqqətlə yanaşmış və onu Moskvaya dəvət etmişdi. Büstü hazırlamaq üçün Heydər Əliyevin fotoları çəkilmişdi. Ömər Eldarov həmçinin Heydər Əliyevin iştirakı ilə natura eskizləri etmişdi. Büst 1986-cı ildə Naxçıvan şəhərindəki Möminə xatın meydanında ucaldıldı.

### 1986-cı il 18 noyabr

Heydər Əliyev Moskvada Azərbaycanın Xalq şairi, böyük söz ustadı Səməd Vurğunun 80 illik yubileyi münasibətilə keçirilən mərasimdə iştirak edib.

SSRİ rəhbərliyində gərgin iş rejiminə baxmayaraq Heydər Əliyev doğma respublikaya diqqətini əsirgəmir, o cümlədən dəstək göstərir, Sovet İttifaqının mötəbər salonlarında Azərbaycanın görkəmli mədəniyyət, ədəbiyyat xadimlərinin yubileylərinə həsr edilən tədbirlərin keçirilməsinə nail olurdu. Belə tədbirlərdən biri də Moskvada İttifaqlar Evinin Sütunlu salonunda Səməd Vurğunun 80 illik yubileyi oldu.

***

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi Heydər Əliyevin fəaliyyət dairəsinə iqtisadi, sosial-mədəni sahələrlə yanaşı, SSRİ-nin Yaxın Şərq, Mərkəzi və Cənub-Şərqi Asiya, Latın Amerikası ölkələri ilə münasibətləri məsələləri də daxil idi. Həmin ölkələrlə əlaqələrin inkişafı istiqamətində gördüyü işlər onu xarici siyasət sahəsində dərin biliklərə malik dövlət xadimi kimi bütün dünyada tanıtmışdı.

Siyasi Büronun iclaslarında Sovet İttifaqı daxilindəki vəziyyət müzakirə ediləndə də Heydər Əliyev rəhbərliyin səhvlərini cəsarətlə söyləyirdi. Artıq SSRİ rəhbəri Mixail Qorbaçovda Heydər Əliyevin nüfuzuna qarşı siyasi qısqanclıq baş qaldırmışdı. O, çıxış yolunu onu vəzifədən uzaqlaşdırmaqda görürdü. Bunun üçün isə "əsaslı səbəb" tapılmalı idi. 1987-ci ilin may ayında halı qəfil pisləşən Heydər Əliyevə müəmmalı infarkt diaqnozu qoyuldu. Məqsəd onun könüllü surətdə istefaya getməsinə nail olmaq idi. Nəticədə Heydər Əliyev SSRİ rəhbərliyindəki vəzifələrindən istefa verdi.

### 1987-ci il 21 oktyabr

Sov. İKP MK-nın plenumu "səhhəti ilə əlaqədar" Heydər Əliyevi Sov. İKP MK Siyasi Bürosunun üzvlüyündən azad edib.

### 1987-ci il 24 oktyabr

SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən azad edilib. Heydər Əliyev SSRİ Nazirlər Soveti yanında dövlət müşaviri təyin edilib.

Heydər Əliyevin istefasından bir neçə gün sonra Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel Aqanbekyan Parisdə müsahibə verərək Dağlıq Qarabağı Ermənistana birləşdirməyin iqtisadi cəhətdən daha sərfəli olduğunu və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan etdi. "L'Humanite" qəzetində dərc olunmuş həmin müsahibə ermənilərin Dağlıq Qarabağda separatçılıq hərəkatının başlanması üçün bir siqnal oldu.

Bunun ardınca Mixail Qorbaçov və onun ermənipərəst ətrafı Heydər Əliyevi gözdən salmaq üçün kampaniya başlatdı. İttifaq mətbuatında, eləcə də Moskvanın göstərişi ilə Azərbaycanda Heydər Əliyev əleyhinə kampaniyaya 70-80-ci illərdə vəzifədən çıxarılmış şəxslər fəal cəlb olunmuşdu.

1988-ci ilin noyabrında Heydər Əliyev öz xahişi ilə SSRİ Nazirlər Sovetinin nəzdində dövlət müşaviri vəzifəsindən də azad olundu, 1989-cu ilin aprelində isə "təqaüd yaşının çatması" səbəbilə Sov. İKP MK üzvlüyündən azad edildi.

### 1989-cu il 29 noyabr

"Teatralnaya jizn" jurnalında Heydər Əliyevin jurnalist Andrey Karaulova müsahibəsi dərc olunub. Heydər Əliyevin jurnalistin suallarına cavabları həmin dövrün hadisələri haqqında aydın təsəvvür yaradır.

Müsahibədə Heydər Əliyevin yaradıcı insanlara qayğıkeş münasibəti də əksini tapıb. Jurnalistin Azərbaycanda yaradıcı ziyalılar içərisində dissidentliklə bağlı sualına onun cavabı diqqət çəkir: *"Ayrılıqda götürdükdə bizdə dissidentlər olmayıb. Lakin, bəlkə də, dissidentlər ona görə olmayıb ki, biz onları, ümumiyyətlə, axtarmırdıq...".*

*Heydər Əliyevin müsahibədə səsləndirdiyi bu fikir isə xüsusilə aktualdır: "Həmişə insanı vəzifədə olarkən tənqid etmək lazımdır ki, o öz qüsurlarını düzəldə bilsin, işini yaxşılaşdıra bilsin. Təqaüdə çıxdıqdan sonra tənqid etmək xüsusi cəsarət tələb etmir... Mən təqaüddəyəm. İndi Azərbaycanda nə baş verdiyini, xalqımın həyatının necə mürəkkəbləşdiyini böyük təəssüf hissi ilə izləyirəm. Bütün bunlar məni son dərəcə ağrıdır..."*

Heydər Əliyev bu fikirləri söyləyəndə qarşıda Azərbaycanı böyük təhlükələr gözləyirdi...

**Hazırladı: V.Orxan**

***(davamı var)***

# Həmkəndlisinin şəhadətindən sonra hərbçi olmağa qərar vermişdi...

Ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən igidlərimizi oxucularımıza tanıtmaqda davam edirik. Bu dəfə Vətən müharibəsinin şəhid kiçik çavuşu Elçin Nəsirovu yada salırıq.



Elçin Ramiz oğlu Nəsirov 1988-ci il yanvarın 13-də Füzuli rayonunun Əhmədalılar kəndində anadan olub. 1993-cü ildə Birinci Qarabağ müharibəsi ilə əlaqədar ailəsi ilə məcburi köçkün kimi İmişli rayonunda məskunlaşıb. Birinci sinfə 1994-cü ildən İmişli rayon 2 saylı orta məktəbində gedib. 2006-cı ildə Füzuli rayon Əhmədalılar kənd B.Əliyev adına tam orta məktəbi bitirib. 2006-2008-ci illərdə həqiqi hərbi xidmətdə olub. Sonra bir müddət mülki işlərdə işləyib. 2016-cı ildə müddətdən artıq hərbi xidmət edən hərbi qulluqçu kimi yenidən ordu sıralarına qayıdıb.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində cəbhənin ön sıralarında olub, Hadrut qəsəbəsi və Füzuli şəhərinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə böyük şücaət göstərib. Oktyabrın 24-də Füzuli rayonunun Qorqan kəndi istiqamətində gedən ağır döyüşdə qəhrəmancasına şəhid olub. Bir gün sonra doğulduğu Əhmədalılar kənd qəbiristanlığında torpağa tapşırılıb.

Şəhidin bacısı Zülfiyyə Nəsirova qeyd edir ki, Elçin çox mehriban, gülərüz, qayğıkeş bir qardaş idi: "Elçin orduda kəşfiyyatçı snayper kimi xidmət edirdi. Döyüş yoldaşları onun məsuliyyətli, cəsarətli və peşəkar hərbçi olduğunu, hədəfə aldığını dəqiq vurduğunu deyirdilər. Elçin futbolu çox sevirdi, hətta məktəb dövründə kənd uşaqlarından ibarət futbol komandası yaradaraq rayon üzrə yarışlarda iştirak edərdi. 2016-cı ilin Aprel döyüşlərində şəhadət şərbətini içən qəhrəmanlarımızdan biri də kəndimizin igid oğlu Orxan Həmidov idi. Onun şəhid olması Elçini çox sarsıtmışdı. Qardaşım həmin gündən sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmətə başladı".

Zülfiyyə xanım bildirir ki, Elçin şəhadətindən bir gün əvvəl evlərinə gəlib: "Elçinin üzündə yorğunluq, gözlərində bir durğunluq vardı. Anam ona "Oğul, paltarını dəyiş, yuyum, təmiz geyin, get" dedi. O isə belə cavab verdi: "Ana, paltarımı çox ehtiyatla yu. O paltarda nə qədər şəhid qanı var, bilmirəm. Bəlkə mənim də qanım o qanlara qarışdı, onda üzülməzsən ana, oğlunla fəxr edərsən". Süfrə arxasında əyləşib yemək yeyərkən yenə də "Bəlkə sonuncu dəfə sizinlə bir süfrədə otururam" dedi. Evdən çıxanda bir daha geri dönərək atamın, anamın üzünə baxdı. Ertəsi gün axşam saatlarında Elçinin şəhid xəbərini aldıq. Atam onun yoxluğuna 3 ay dözə bildi, 2021-ci il yanvarın 10-da vəfat etdi".

Elçin Nəsirov ölümündən sonra ölkə başçısının müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə" medalları ilə təltif edilib.

Allah rəhmət eləsin.

**Nurəddin**

# Çingiz Aytmatovun abidəsi ilə bağlı müsabiqə

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Türk dünyasının görkəmli ədibi, Qırğızıstanın Xalq yazıçısı Çingiz Aytmatovun xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində ucaldılacaq abidəsinin eskiz layihələrinin hazırlanması üçün heykəltaraşlar arasında açıq müsabiqə elan edir. Müsabiqə 15 iyun – 31 iyul 2023-cü il tarixlərində keçiriləcək.



Eskiz layihələr Mədəniyyət Nazirliyinin "Heykəltaraşlıq abidələrinin, xatirə-memorial və memarlıq komplekslərinin ucaldılması və demontajı üzrə Ekspert komissiyası"nın üzvləri tərəfindən qiymətləndiriləcək. Layihələrin müzakirəsi qapalı şəraitdə keçiriləcək.

Müsabiqənin qalibi barədə məlumatlar əsas mərhələ başa çatdıqdan 15 gün sonra 15 avqust 2023-cü il tarixində Mədəniyyət Nazirliyinin rəsmi saytında (culture.gov.az) yayımlanacaq. İkinci və üçüncü yeri tutan müəlliflərə müvafiq olaraq 2000 manat və 1000 manat məbləğində pul mükafatı təqdim ediləcək.

# Kino xadimi Tələt Rəhmanovun xatirəsi anıldı

## "Kinostudiyanın dəhlizində görünəndə hər kəsin əhvalı yüksələrdi..."

Tanınmış kino xadimi, aktyor, film direktoru Tələt Rəhmanovun (1931-1995) xatirəsi iyunun 2-də Azərbaycan Dövlət Film Fondunda yad edildi.




Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev qonaqları salamlayaraq bildirdi ki, Tələt Rəhmanovun 90 illik yubileyi (2021) pandemiya dövrünə təsadüf etdiyi üçün xatirəsinə həsr olunan tədbir də təxirə salınmışdı: "Ötən günlərin birində sevilən aktyor və rejissor, Əməkdar artist Elxan Qasımovun təşəbbüsü ilə bu tədbiri gec də olsa, keçirmək qərarına gəldik. Elxan "aparıcı da özüm olacağam" demişdi. Ssenarini də onun arzusu ilə qurmuşduq. Təəssüf ki, bu günlərdə Elxan Qasımov dünyadan köçdü".

Sonra "Azərbaycanfilm"də çalışmış, dünyasını dəyişən fədakar kino xadimlərinin, o cümlədən Tələt Rəhmanov və Elxan Qasımovun xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Çıxışına davam edən Cəmil Quliyev dedi ki, ziyalı ailədə dünyaya gələn Tələtin atası və əmisi vaxtilə Azərbaycanda yüksək vəzifələrdə çalışıb. Bu səbəbdən də ailənin əksər üzvləri repressiya qurbanı olublar. Tələt orta məktəbi bitirdikdən sonra indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olunsa da, atası "xalq düşməni" adlandırıldığından ali təhsil ocağını tərk etmali olub. Bir müddət sonra Teatr Texnikumuna daxil olub. Çətinliklərlə üzləşən, iş tapa bilməyən Tələt görkəmli Azərbaycan memarı Ənvər Qasımzadənin məsləhəti ilə "Azərbaycanfilm"ə işə düzəlib... kinostudiyada çalışmağa başlayıb. O, 60-dan çox filmdə müxtəlif xarakterli irili-xırdalı rolda çəkilib. Bu rollar əsasən epizodik olsa da, özünəməxsusluğu ilə seçilib və sevilib. Tələt Rəhmanov filmlərdə çəkilməklə yanaşı, tədricən film direktoru, rejissor assistenti kimi də çalışıb. Müxtəlif janrlı ekran əsərlərində rol alan aktyorun yaratdığı maraqlı kino obrazlarından Vəli ("Arşın mal alan", 1965), milis işçisi ("Alma almaya bənzər"), kənd sakini ("Əhməd haradadır?"), furqon sahibi ("Yenilməz batalyon"), xidmətçi ("Uzaq sahillərdə"), milis işçisi ("Sehrli xalat"), Əli ("Qayınana"), inzibatçı ("Əmək və qızılgül"), Nazlının dayısı ("Şirbalanın məhəbbəti"), ferma müdiri Bayandur ("Kişi sözü") və digərlərini misal çəkə bilərik. Bir çox rejissorlar film çəkməyə başlayanda film direktoru olaraq Tələtlə işləməyə can atırdı. Çünki o, insanları incitməzdi, işində dəqiq və bacarıqlı idi.

Xalq artisti Rasim Balayev də Tələt Rəhmanov haqqında xatirələrini bölüşdü, film çəkilişləri ilə bağlı maraqlı məqamları diqqətə çatdırdı: "Tələt kinostudiyanın dəhlizində və bufetində görünəndə hər kəsin əhvalı yüksələrdi. Zarafatcıl, şən, xeyirxah, pozitiv insan idi. Şəxsiyyəti ilə sənəti vəhdət təşkil edirdi. Kinorejissorların ona böyük hörməti var idi. "Babək" filminin ağır çəkilişlərinin həyata keçirilməsində, film üçün lazımi şəraitin yaradılmasında Tələt Rəhmanovun xüsusi xidmətləri olub...".

Əməkdar mədəniyyət işçisi Yusif Şeyxov aktyorla "Sehrli xalat" filminin çəkilişlərində tanış olduğunu və əməkdaşlıqlarının sonralar da davam etdiyini vurğuladı, onun bir çox ekran əsərlərinin direktoru kimi fəaliyyətini qeyd etdi.

Çıxışlardan sonra Tələt Rəhmanovun rol aldığı filmlərdən fraqmentlər nümayiş olundu.

**Lalə Azəri**

Aşıq Əkbər Cəfərov – 90

# Loğman möcüzəli sənət

İyirminci əsr Azərbaycan aşıq sənətinin həm ifaçılıq, həm də yaradıcılıq sahəsindəki uğurlarının ləyaqətli daşıyıcıları olan qüdrətli saz-söz ustalarına könül borcumuz çoxdur. Onların sazı-sözü, ifaçılıq məharəti illər, onillər boyu ruhumuzu oxşadı, sənət zövqümüzü biçimləndirdi, dizimizə taqət, ürəyimizə təpər verdi. XX əsrin 30-50-ci illərində Aşıq Mirzə, Aşıq Əsəd, Şirvanlı Mirzə Bilal, Qaraçıoğlu İbrahim, Sadiq Sultanov, Xındı Məmməd, İslam Yusifov və Qara Mövlayevin şərəfləndirdiyi sənət meydanı sonrakı onilliklərdə sevgi və nisgillə xatırlandı:

*Mahaldan-mahala atını sürdün,*
*Ağır toylar gördün, məclislər gördün.*
*Gəlinlər gətirdin, qızlar köçürdün,*
*Çox nəmərlər aldın, ay Mirzə dayı –*



deyib kövrələn Xalq şairi Hüseyn Arifin həmin dönəmi yuxu kimi, nağıl kimi əzizləməsi günü bu gün də saz-söz əhlinin üreyindədir.

Əllinci illərdən Aşıq Şəmşirin, Hüseyn Cavanın, Mikayıl Azaflının, Əmrah Gülməmmədovun sənətə gətirdiyi ab-hava yeni bir saz-söz nəslini qanadlandırdı. Bu sırada Hüseyn Saraçlı, Kamandar Əfəndiyev, Şakir Hacıyev, İmran Həsənov, Murad Niyazlı, Ədalət Nəsibov, İsfəndiyar Rüstəmov, Mahmud Məmmədov və başqa istedadlı saz-söz ustadının adını çəkmək olar. Bu yerdə, "Onların içində biri də vardı", – deyə, sadaladığım siyahıda böyük bir boşluğun olduğunu söyləsələr, ad çəkilməsə belə, hər kəsin üreyindən Aşıq Əkbər Cəfərovun adı keçər. Təkcə adı keçməz, unudulmaz şaqraq səsi, hamını heyrətdə qoyan möcüzəli zəngulesi, şirin, məlahətli danışığı, sözü-söhbəti keçər...

"Hamını heyrətdə qoyan" deyərkən yadıma amerikalı musiqişünas professor Alan Lomaksın Aşıq Əkbərin səsini dinləyib onun sehrində qalaraq söylədiyi sözlər düşdü. 1964-cü ildə təqribən otuz yaşında olan cavan Əkbər və balabançısı Müseyib Abbasov Moskvada keçirilən Beynəlxalq Musiqi Festivalında çıxış etdiyi zaman bənzərsiz ifadan heyrətə və vəcdə gələn professor Alan Lomaks özünü saxlaya bilməyib deyir: "Mən həyatım boyu çox yerlər gəzmişəm və çox gözəl səslər eşitmişəm. Ancaq sənin səsin kimi gur, şaqraq və məlahətli səsə ilk dəfədir ki, rast gəlirəm".

Həmin tədbirdə Aşıq Əkbərlə birlikdə olan unudulmaz aşıqşünas alimimiz Əminə Eldarova belə bir məqamı ayrıca vurğulayırdı: "Festivalda dünyanın müxtəlif ölkələrini təmsil edən yüzlərlə istedadlı ifaçı varıydı. Alan Lomaks bizim dilimizi bilməsə də, məhz Aşıq Əkbərin gözəl ifası yüzlərlə ifa arasından onu özünə çəkmişdi. O, Əkbərin ifasında bir neçə mahnını lentə yazdırdı, bir müddət sonra isə, eşitdiyimə görə, həmin mahnıları iki milyon tirajla ayrıca val halında buraxdırdı. Üstündən uzun illər keçəndən sonra 2006-cı ildə Bakıya gələn başqa bir amerikalı musiqişünas professor Anna Oldfild həmin lent yazısının bir nüsxəsini mənə bağışladı. Alan Lomaks Əkbərin möcüzəli səsi barədə bizə dediklərini orada da söyləyir. Bu böyük musiqişünas 2002-ci ildə dünyasını dəyişib".

Aşıq Əkbər ifaçılıq ləmsinə görə Aşıq Mirzə Bayramovun məlahətli səs-oxu üslubunu davam etdirirdi. Ancaq onun bülbültək cəh-cəhi təkrarsız gözəlliyə malik idi. Adətən saz havası aşığın səsini, ifasını tamamlayıb gözəlləşdirir. Əkbərin bənzərsiz şirinliyə malik olan səsi isə tamam başqa bir mənzərə ortaya qoyurdu. O, oxuduğu zaman səsində çağlayan möcüzəli məlahət saz havalarını gözəlləşdirirdi. "Ovşarı", "Şahsevəni", "Kərəm gözəlləməsi", "Qəhrəmanı", "Mirzəcanı", "Çoban bayatı", "Göyçə gözəlləməsi", "Aşıq Söyünü" sırasından olan neçə-neçə saz havasının ifa biçimində onun səs möhürü var. İndi bu havalar adətən Əkbər ləmsində, onun müəyyənləşdirdiyi oxu biçimində ifa olunanda adama xoş gəlir. Çünki onların ən nümunəvi ifası məhz Əkbər səsi, Əkbər ifası ilə yaddaşlara köçmüş, ürəklərdə yuva bağlamışdır.

Hansı məclisdə olmasından asılı olmayaraq, Əkbər həmişə ürəkdən oxuyardı. Oxuduğu zaman ürəyi səsində göründü, işıq kimi, nur kimi bərq vurardu səs çalarları. Tanrı ona boy-buxun, yaraşıq verəndə səxavətini əsirgəməmişdi. Bu səbəbdən Əkbər təkcə səsiylə yox, görkəmiylə, üz-gözünün nuruyla, mehriylə də məclisə yaraşıq gətirərdi. Sazı bağrına basanda başqa bir aləmdən gələn mələkmisal bir adama bənzəyərdi.

***

Əkbərin ifa və oxu tərzində, məclis aparmağında, əgər belə demək mümkünsə, bir ziyalılıq var idi. Çox ölçülü-biçili danışırdı, hərəkət plastikasına, etik davranış normalarına xüsusi diqqət yetirərdi. Mərifət, qanacaq, abır-həya, ləyaqət kanıydı. Əli də açığıydı, könlü də!

İfa etdiyi havanın müxtəlif məqamlarındakı zil-bəm keçidlərini, eləcə də bir havadan başqa havaya adlama manerasını o qədər böyük ustalıqla həyata keçirirdi ki, gerçəkləşdirdiyi sənət məharətinə heyran qalmaya bilmirdin. İfa boyu vurduğu güllər, boğaz qaynatmaları, zəngulələr də bir ayrı aləmiydi. Oxuduğu zaman nümayiş etdirdiyi səs gözəllikləri o qədər çoxqatlı və zəngin idi ki, səsinin hansı nöqtəsinə diqqət yetirirdinsə, məlahət görürdün, şirinlik dadırdın. Bunun bir səbəbi də Aşıq Əkbərin sazla bərabər "balabanı – balaban elmini" dərindən bilməsi idi. O, sənət aləminə balabançı kimi gəlmiş, sonra aşıqlığa adlamışdı. Havanın uyğun bir yerində sazla balabanı deyişdirmək ənənəsini də o yaratmışdı.

Aşıq Əkbər hələ sağlığında böyük bir ifaçılıq məktəbi yaratmışdı. Onun ləmsində oxuyanların miqyası doğma Tovuzun hüdudlarından çox-çox uzaqlara yayılmışdı. Göyçədə, Gəncədə, Kəlbəcərdə, Gədəbəydəki davamçılardan başqa, Təbriz-Qaradağda, Zəncanda da "Əkbər yolu" gedənlərin sayı beş deyil, on deyil. Bu gün taylı-bu taylı Azərbaycanın elə bir mahalı, elə bir obası tapılmaz ki, orada Əkbərin adı bilinməsin, ifası sevilməsin. Hətta sazdan-sözdən uzaq adamlar belə "Ögey ana" və "Böyük dayaq" filmlərində oxuyan aşığa – Əkbər Cəfərova heyranlıqlarını gizlədə bilmirlər.

***

Zəngin söz və havacat repertuarı var idi Aşıq Əkbərin. Çoxlarından fərqli olaraq Şirvan havalarına da dərindən bələdiydi. Otuzdan yuxarı dastanı yerli-yataqlı bilirdi. Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Hüseyn Şəmkirli, Aşıq Ələsgər, Aşıq Hüseyn Bozalqanlı, Molla Cuma kimi qüdrətli söz ustadlarının əksər şeirləri onun sinəsindəydi. Tovuzdan çıxan aşıqlar və el şairləri haqqında ən mötəbər qaynaq da onun yaddaşıydı. Ömrünün son illərində min bir zəhmət bahasına "Tovuzun qırx gülü" adlı bir kitab da hazırlayıb "Yazıçı" nəşriyyatına təqdim eləmişdi. Deyəsən, arada-bərədə itə-bata düşdü...

Sözün-havanın axar-baxarına çox həssasıydı. Gözəl oxumağından əlavə, səliqə-sahmanlı, üreyəyatan deklamasiyası da var idi. Aşıq şeirlərinin elə gözəl açıqlamasını verirdi ki, söz sərrafı olduğu o saat bilirdi. Təbii ki, bu səbəbdən özünün də söz-düzüb qoşmaq meyili var idi. Səsindəki-ifasındakı məlahət və mükəmməliyyə çatmasa da, Əkbər sinəsindən pərvazlanan qoşmalar, gəraylılar, hər necə də olsa, Əkbər yadigarıdı, ondan bizə qalan könül ərməğanıdı:

*Əkbər nəğmə dedi bir də çöllərə,*
*Oynayan şimşəyə, axan sellərə.*
*Töküldü ağ yağış, qovuşdu dərə,*
*Təzə sular gəldi, çay təzələndi.*

Burada yaz yağışının poetik lövhə şəklində canlandırılması sözügedən təbiət hadisəsinin özü qədər təbiidir. "Töküldü ağ yağış, qovuşdu dərə" misrasındakı peyzajın gözəlliyinə baxın: şıdırğı yaz yağışı elə tökülür ki, dərənin dərə olduğu bilinmir, yağış onu görünməz eləyib!

*Yola saldım ötüb gedən yazları,*
*Yaş ötdükcə təzələdim sazları,*
*Dünən "əmi" dediklərimin qızları,*
*Bu gün mənə "Əkbər əmi" dedilər –*

bəndindəki xəlqi kolorit və poetik səmimiyyət də unudulmazdır.

Cəmi əlli altı il yaşayan "Əkbər əmi"nin – Aşıq Əkbərin 1990-cı ildəki qəfil itkisi onun sənətinin vurğunlarını nə saznan, nə də söznən ovuda bildi. Biz də ustad sənətkarın vaxtsız vəfatından sarsıldıq və bu şeir yazıldı:

*Yayın ortasında, yaylaq çağında,*
*Bülbüllər bülbülü bizdən ayrıldı.*
*Qəfil xəzan əsdi ömür bağında,*
*Cığırdan çəkildi, izdən ayrıldı.*

*Belə yaratmışdı onu Yaradan,*
*Sözü şəhdi-şəkər, özü nur adam.*
*Başı açılmazdı qonaq-qaradan,*
*Məclisdən çəkildi, sözdən ayrıldı.*

*Duyğular sayrışan üreyi vardı,*
*İlin hər çağında könlü bahardı.*
*Səsində bülbüllər cəh-cəh vurardı,*
*Hayıf ki tez soldu, yazdan ayrıldı.*

*Yanıb Orxan Paşam, qorda qalıbdı,*
*Həsrətli gözləri yolda qalıbdı,*
*Tanrının insafı harda qalıbdı –*
*Əkbər köç eylədi, sazdan ayrıldı...*

***

...Sazın-sözün nə demək olduğunu bilən hər kəs Aşıq Əkbərin adamın ruhuna dalğa-dalğa yayılan məlahətli səsindən doymur, onu üreyinin, canının qidası, dərmanı sayır. Sözün əsl mənasında, ilğıma bənzəyən bu səs o qədər həlim və mehribandır ki, ona yoldaşlıq eləyib səfərə çıxmaq, onunla birlikdə uzun bir yol getmək hər bir saz sevdalısının üreyindən olur. Dinlədikcə dinləyirsən, yormur, usandırmır Əkbərin səsi. Səni daim uğura, işığa çağırır bu səs. Ən yorğun, əzgin-üzgün çağında, hətta xəstə vaxtında belə qoluna girib ayağa qaldıra bilir, ümidə doğru, sabaha doğru aparır. Bu baxımdan Aşıq Əkbər səsi dünənin nisgilli xatirəsində qalan bir səs deyil, bu günün-sabahın yarasına məlhəm qoyan, sevən ürəklərin işığını artıran, bütün zamanların gözəl duyğularını sığal çəkə-çəkə qanadlandıran və sözügedən bənzərsiz keyfiyyətlərinə görə ulu Tanrının müqəddəs dərgahından gəldiyinə heç bir şübhə yeri qoymayan ilahi bir sədadır. Əkbər səsinin, Əkbər sənətinin loğman möcüzəsi, sirli-sehrli şəfası, inşallah, heç bir zaman tükənməyəcək...

**Məhərrəm Qasımlı**
**Əməkdar elm xadimi, professor**

# "Ürəyimdəki Azərbaycan" – Şimali kiprli fotoqrafın Bakıda sərgisi açılıb

İyunun 1-də Şimali Kipr Türk Respublikasının (ŞKTR) Bakı nümayəndəliyi tərəfindən qurumun təhsil və mədəniyyət müşaviri Tevfik Ulualın "Ürəyimdəki Azərbaycan" adlı fotosərgisi təşkil olundu. Sərgi Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmişdi.

Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirildikdən sonra Şimali Kiprin Bakıdakı nümayəndəliyinin rəhbəri Ufuk Turqaner çıxış edərək Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının milli inkişaf yolunun və ideologiyasının formalaşmasında böyük rolu olduğunu dedi. "Şimali Kipr Türk Respublikası və Azərbaycan Respublikası arasında dostluq əlaqələrinin inkişafında ölkələrimizin mədəniyyət, idman və sosial sahələrində əməkdaşlığı xüsusi yer tutur. Tevfik bəy qardaşlıq duyğusunun təsiri ilə bu gün sizlərlə fotoqraf gözü ilə çəkilmiş əsərlərini bölüşür. Buna görə ona təşəkkürümü bildirmək istəyirəm. Həmçinin diqqətinizə çatdırmaq istəyirəm ki, Tevfik bəy



Azərbaycandakı fəaliyyətini başa vuraraq vətənə dönməyə hazırlaşır. Biz ona cansağlığı və bu illər ərzində gördüyü səmərəli fəaliyyətə görə təşəkkür edirik", – deyə U.Turqaner qeyd etdi.

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş sərgidə iştirakından məmnunluğunu ifadə etdi: "Azərbaycanın görmədiyimiz və hələ də görə bilmədiyimiz bir çox gözəlliklərini bu gün sərgidə bizə nümayiş etdirdiyi üçün Tevfik bəyə təşəkkürlərimi bildirirəm".

Sərgidə Bakı ilə yanaşı, Azərbaycanın cənubundan şimalına, şərqindən qərbinə qədər olan gözəl təbiətinin əks olunduğu fotolar nümayiş etdirilir.

Tevfik Ulual Türkiyə Cümhuriyyətinin 100 və Ulu öndər Heydər Əliyevin 100 illik yubileyləri çərçivəsində belə bir sərginin reallaşmasından məmnunluğunu ifadə edərək təşkilatçı və dəstək olanlara, eləcə də sərginin kuratoru Aqdes Bağırzadəyə təşəkkür etdi. O, Bakının mənzərəsini əks etdirən fotonu səfir Cahit Bağcıya hədiyyə etdi.

Çıxışlardan sonra qonaqlar fotosərgi ilə tanış oldular. Sərgidə 50-yə yaxın foto yer alıb.

Qeyd edək ki, Tevfik Ulual 2008-ci ildən fotoqrafiya ilə məşğul olur. O, 2019-cu ildə Şimali Kiprin Bakı təmsilçiliyində mədəniyyət və təhsil attaşesi olaraq fəaliyyət göstərir. "Ürəyimdəki Azərbaycan" fotoqrafın Bakıda ikinci sərgisidir.

**L.Azəri**

# Küçə və parklarda ifa edən musiqiçiləri dinləyirsinizmi?





Musiqi ruhun qidasıdır. Eşitdiyin anda məkan və zaman fərq etməz, insanı başqa bir aləmə aparır. Musiqini böyük səhnələrdə ifa edənlərlə yanaşı, xalqa açıq məkanlarda, küçələrdə, parklarda ifa edənlər də az deyil. Dünyada "Oskar" və "Qremmi" mükafatları almış, milyonlarca albomu satılmış bir çox musiqiçilərin yetişməsinə də küçələrdə mahnı ifaçılığı təkan verib. Bu mənada Edit Piaf, Bob Dilan, Karlos Santana, Joni Mitçell kimi məşhurları da nümunə göstərə bilərik.

Paytaxtımızda da belə ifaçılara tez-tez rast gəlirik. Son illərdə onların sayında artım müşahidə olunur. Ürəyəyatan musiqini duyan kimi addımımızı saxlayıb onları dinləməyə başlayırıq. Onların arasında müxtəlif yaşlardan ifaçılar var. Açıq havada canlı ifaları ruhumuza sığal çəkir. Hətta ötən il Azərbaycan Gənclər Fondunun dəstəyi, "Cavan" gənclər hərəkatının təşkilatçılığı ilə Bakıda "Küçə musiqiçiləri gecəsi" də təşkil olunub.

Çox zaman ifa etdikləri musiqiləri dinləyib uzaqlaşdığımız bu insanları daha yaxından tanımağa qərar verdik. Kimisi müsahibəyə razılıq verməsə də, bəziləri ilə həmsöhbət ola bildik.

**Firuzə İsmayılova** və **Aysel Rzayeva** paytaxtın Nizami küçəsindəki yeraltı keçidlərin birində gitarada ifa edirlər. Kənarda dayanıb dinləyirik. Gözəl musiqi dinləyənlərin könlünü oxşayır. Alqışlayırıq. Budur, ifalarına ara verirlər və yaxınlaşıb özümü təqdim edir, qəzetimiz üçün yazı hazırlamaq istədiyimizi deyirik. Məmnuniyyətlə razılaşırlar.

Firuzə İsmayılova 2002-ci ildə Göyçay şəhərində anadan olub. Paytaxtın Binəqədi rayonundakı 298 nömrəli tam orta məktəbi bitirib. Hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdindəki Humanitar Kollecdə bədii yaradıcılıq işi ixtisası üzrə təhsilini davam etdirir.

Musiqiyə uşaq yaşlarından həvəs göstərdiyini qeyd edən Firuzə 14-15 yaşlarında gitarada ifa etməyi öyrənib: "Balaca vaxtı radioda hansısa mahnı səsləndikdə mən də qoşulub fonoqram kimi oxuyurdum. Musiqiyə həvəsimi görən valideynlərim mənə kiçik bir gitara almışdı. Beləcə, gitara ifaçısı oldum".

Müsahibimiz 17 yaşından açıq havada musiqilər ifa etməyə başlayıb: "Əslində, qızların küçədə musiqi ifa etməyinə bir çoxları yaxşı baxmır. Ancaq mən onların necə düşünməyindən asılı olmayaraq, bu yolu seçdim. Həmkarım Aysellə tanış olduqdan sonra bir yerdə ifa etməyə qərar verdik. O gündən paytaxtın bir sıra küçə və parklarında birgə ifa edirik".

Gün ərzində 3-4 saat küçə musiqisi ilə məşğul olduğunu söyləyən ifaçı insanların onlara böyük maraq göstərdiyini, qazandığı məbləğin gündəlik xərclərini qarşıladığını bildirir: "Gün ərzində ən çox vətənpərvər ruhlu mahnılar ifa edirik. Bu musiqilər yanımızdan keçən insanlara xoş təsir bağışlayır. Hətta bir gün mən Aysellə su almağa getmişdim. Gəlib gördüm ki, orta məktəbdən müəllim və şagirdlər, valideynlər onun ətrafına toplaşıb, bir yerdə "Cənab leytenant" mahnısını ifa edirlər. Mən də gitaranı əlimə alaraq onlara qoşuldum. Həqiqətən, həmin gün insanların bizə olan münasibəti məni çox duyğulandırmışdı".

İlk arzusunun böyük səhnələrdə ifa etmək olduğunu deyən həmsöhbətim işindən zövq aldığını vurğulayır: "Humanitar Kollecin 4-cü kurs tələbəsiyəm. Artıq praktika dövründəyik. Dərslərdən sonra buraya gələrək musiqi ifa edirəm. Küçədə musiqi ifa edən zaman tələbə yoldaşlarım da gəlib məni dinləyirlər. Onu da qeyd edim ki, ailəmizdə küçədə ifaçılıq etməyimi bilirlər və buna normal yanaşırlar...".

***

Aysel Rzayeva 2001-ci ildə Bakı şəhərində anadan olub. Xətai rayonundakı 25 nömrəli tam orta məktəbdə təhsil alıb. O da kiçik yaşlarından incəsənətə meyilli olduğunu, orta məktəb illərində dəfələrlə ədəbi-bədii layihələrdə uğur qazandığını deyir: "İstedadlı gənclər birliyi" komandası məni öz qruplarına dəvət etdi, birlikdə çoxsaylı tədbirlərə qatıldıq. Ən böyük arzum tanınmış bəstəkarımız mərhum Nailə Mirməmmədlidən (1961-2021) təhsil almaq idi. Fərdi olaraq onun yanına getmişəm. Nailə xanımın haqqımdakı müsbət fikirləri musiqini mənə daha da sevdirib".

Müsahibim gitaraya sevgisinin tükənməz olduğunu və buna görə də türkiyəli müəllimdən fərdi təhsil aldığını bildirir: "İki ay müəllim yanında gitaranı öyrəndikdən sonra öz üzərimdə çalışaraq ifaçılığımı daha da təkmilləşdirdim. İlk dəfə 20 yaşımda açıq havada ifaçılığa başladım. Bildiyiniz kimi, xaricdə də küçə ifaçıları var. Çox şadam ki, bizim ölkədə belə ifaçılar fəaliyyət göstərir".

Bu işdə anasının onu dəstəklədiyini bildirən həmsöhbətim paytaxtın Nizami küçəsi ilə yanaşı, "Qış parkı" və digər məkanlarda da ifa etdiyini deyir: "İnsanların əksəriyyəti bizə rəğbətlə yanaşır. Onların diqqətini cəlb etməyi bacarırıq. Hətta xarici vətəndaşlar da bizim ifamıza diqqətlə qulaq asırlar. Amma düşünürəm ki, ifamızı sevməyənlər də ola bilər, bu, normaldır. Bu bizi daha da güclü edir və öz üzərimizdə çalışırıq".

Gələcək planları ilə bağlı danışan Aysel sənətinin onu böyük uğurlara aparacağına əminliyini bildirir: "Gələcəkdə özümü böyük səhnələrdə görürəm. Özümə inanıram. Ən böyük arzum isə budur ki, konsertim olsun və şəhərin kassalarında bir dənə də biletim qalmasın...".



***

"Azneft" meydanından bulvara doğru yeraltı keçiddə iki musiqiçi də neçə müddətdir diqqətimizi çəkirdi. Repertuarları da, ifaları da fərqlidir. Xüsusilə turistləri cəlb etmək üçün "Sarı gəlin" xalq mahnısı, "Qarabağ" şikəstəsi, şən-şux ruhda mahnılar ifa edən gənc musiqiçilər bəzən növbəli şəkildə çalışırlar. Azərbaycan milli alətlərində səslənən musiqilərin sədasından isə heç bir turist yan keçə bilmir.

Tar ifaçısı **Rəvan Məmmədov** əslən Bərdə rayonundandır. O, fotosunun qəzetdə verilməməsi şərtilə müsahibəyə razı oldu. Deyir atası onun açıq məkanlarda ifa etməsindən xəbərsizdir. Rəvan Bərdədə uşaq musiqi məktəbini, daha sonra Bakıda Musiqi Kollecini bitirib. İki ildən çoxdur bu məkanda ifaçılıqla məşğuldur. Məqsədi Milli Konservatoriyada təhsil almaqdır. Hətta qəbul imtahanında test mərhələsində yetərincə bal yığıb. Qalır qabiliyyət mərhələsindən keçmək.

Rəvan tarda gözəl ifası ilə insanların diqqətini çəkə bilir. Bir müddət əvvəl onun ifası zamanı tanınmış incəsənət xadimlərinin ayaq saxlayaraq maraqla dinlədiklərinin şahidi olmuşam.

***

Kamança ifaçısı **Aygün Quliyeva** əslən Füzuli rayonundandır. Deyir ki, 8 aydır açıq havada ifa edənlərin sırasına qoşulub. Milli Konservatoriyada qiyabi təhsil alır: "Təhsilim qiyabi olduğu üçün evdə çox darıxırdım. Fikirləşdim ki, evdə oturmaqdansa, çıxım ifalarımı təqdim edim. Beş il musiqi məktəbində, daha sonra Musiqi Kollecində təhsil almışam. İndi konservatoriyanın 4-cü kursunda təhsil alıram. Şükür, gündəlik xərclərimizə bəs edir".

Aygün bu sahədə uğur qazanmaq üçün zaman və məkanın düzgün seçilməsi, eləcə də repertuar seçiminin vacib olduğunu deyir. Bildirir ki, insanların sıx olduğu saatlar və uyğun mahnı seçimi bəzən daha çox tamaşaçının yığılmasına səbəb olur.

Həmsöhbətimin ən böyük arzusu ali təhsilini bitirdikdən sonra ata yurdu Füzuliyə qayıdıb orada çalışmaqdır. Deyir səbirsizliklə Füzuliyə qayıdıb orada pedaqoji fəaliyyətlə məşğul olacağı günü gözləyir. Biz də ona bu arzusunun tezliklə reallaşmasını diləyirik.

***

Təəssüf ki, bəzi insanlar küçələrdə ifa olunan musiqiyə sənət kimi yanaşmırlar. Ola bilsin bu da bizdə küçə musiqisi ənənəsinin hələlik geniş yayılmaması ilə bağlıdır. Bir də küçə və parklarda ifa edən insanların hamısı professional deyil. Ancaq həmsöhbət olduğumuz ifaçılar musiqi sənətinə həssas yanaşan, özlərini böyük bir tamaşaçı kütləsi qarşısında çıxış edirmiş kimi hiss edənlərdir. Onlar öz sənətləri, zəhmətləri müqabilində cüzi qazanc əldə edirlər. Bizə isə onlara böyük səhnələrdə çıxış etmək, öz məqsədlərinə çatmaq yolunda uğurlar diləmək qalır. Təki musiqi, sənət yaşasın, insanların qəlbi xoş olsun...

**Nurəddin Məmmədli**
**Lalə Azəri**

## Xatirə təqvimi — 6–8 iyun

### Azərbaycan

**6 iyun 1917** – Teatr xadimi, rejissor, pedaqoq, Əməkdar incəsənət xadimi Zəfər Əlipaşa oğlu Nemətov (1917 – 19.11.1971) anadan olub. Yaradıcılığının əsas dövrü Gənc Tamaşaçılar Teatrı ilə bağlıdır, 1942-1969-cu illərdə bu teatrda quruluşçu rejissor və baş rejissor işləyib.

**6 iyun 1929** – Əməkdar rəssam, heykəltaraş Münəvvər Məcid qızı Rzayeva (1929-2004) Bakıda anadan olub. Mikayıl Müşfiq (Bakı və Xızı), Ayna Sultanova, Məhsəti Gəncəvi (Gəncə) və digər tanınmış şəxsiyyətlərin heykəllərinin müəllifidir.

**6 iyun 1929** – Akademik, fizika-riyaziyyat elmləri doktoru Çingiz Oveys oğlu Qacar (1929 – 12.6.2021) Bakıda doğulub. İxtisas sahəsi ilə yanaşı, "Qədim və orta əsrlər Azərbaycanın görkəmli şəxsiyyətləri", "Köhnə Bakı", "Köhnə Şuşa" və s. kitabların müəllifidir.

**6 iyun 1972** – Bakıda Nəriman Nərimanovun heykəlinin (heykəltaraş – Xalq rəssamı Cəlal Qaryağdı) açılışı keçirilib. Respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev mərasimdə çıxış edib.

**7 iyun 1905** – Azərbaycanın mətbuat və ictimai fikir tarixində mühüm rol oynamış "Həyat" qəzeti nəşrə başlayıb. Qəzetin naşiri Əlimərdan bəy Topçubaşov, redaktorları Əhməd bəy Ağaoğlu (Ağayev) və Əli bəy Hüseynzadə idi. 1906-cı il 3 sentyabrınadək Bakıda nəşr edilib.

**7 iyun 1893** – Peşəkar təhsil almış ilk azərbaycanlı qadın rəssamlardan Qeysər Seyfulla qızı Kaşıyeva (1893 – 17.4.1972) Tiflisdə doğulub. Qafqaz İncəsənəti Təşviq Cəmiyyətinin rəssamlıq sinfində oxuyub. Portret və peyzajların ("Azərbaycan ziyalısı", "Göl sahili" və s.) müəllifidir. "Şərq qadını" jurnalında rəssam işləyib.

**7 iyun 1924** – Xalq artisti Məlik Yusif oğlu Dadaşov (1924 – 3.12. 1996) Bakıda anadan olub. Akademik Milli Dram Teatrında çalışıb. Rus Dram Teatrında direktor və bədii rəhbər (1989-1991) işləyib. Teatr və televiziya tamaşalarında, filmlərdə ("Dəli Kür", "Axırıncı aşırım", "O dünyadan salam", "Fəryad" və s.) filmlərdə yaddaqalan rollar oynayıb.

**8 iyun 1885** – Arxeoloq Davud Mikayıl oğlu Şərifov (1885-1952) Tiflisdə doğulub. Azərbaycan Dövlət Tarix Muzeyinin müdiri olub, arxeoloji materiallar əsasında "Bizim mədəni irsimiz" adlı dərs vəsaiti yazıb.

**8 iyun 1900** – Heykəltaraş İbrahim Hilal oğlu Quliyev (1900-1938) anadan olub.

**8 iyun 1981** – Azərbaycanın ilk professional qadın opera müğənnisi, SSRİ Xalq artisti Şövkət Həsən qızı Məmmədova (18.4.1897 – 1981) vəfat edib. Milan Konservatoriyasında təhsil alıb. 1923-cü ildə Bakı Teatr Məktəbinin (indiki Mədəniyyət və İncəsənət Universiteti) yaradıcılarından olub.

**8 iyun 2022** – Yazıçı-jurnalist, ssenarist İntiqam Alı oğlu Mehdizadə (14.2.1945 – 2022) vəfat edib.

### Dünya

**6 iyun 1599** – İspan rəssamı Dieqo Rodriqes de Silva Velaskes (Diego Rodriguez de Silva y Velazquez; 1599-1660) anadan olub.

**6 iyun 1606** – Fransız dramaturqu Pyer Kornel (Pierre Corneille; 1606-1684) anadan olub. Əsərləri: "Sid", "Edip", "Psixeya", "Medeya" və s.

**6 iyun 1799** – Böyük rus şairi, dramaturq və nasir Aleksandr Sergeyeviç Puşkin (1799 – 10.02.1837) anadan olub. Əsərləri: "Yevgeni Onegin" (mənzum roman), "Ruslan və Lyudmila", "Qafqaz əsiri", "Tunc atlı" (poema), "Boris Qodunov", "Motsart və Salyeri" (pyes), "Kapitan qızı", "Qaratoxmaq qadın" (povest) və s.

**6 iyun 1875** – Alman yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1929) Tomas Mann (Paul Thomas Mann; 1875 – 12.08.1955) anadan olub. Əsərləri: "İosif və onun qardaşları" (tetralogiya), "Buddenbroklar", "Doktor Faustus" (roman) və s.

**7 iyun 1848** – Fransız impressionist rəssamı, qrafik və heykəltaraş Pol Qogen (Eugene Henri Paul Gauguin; 1848-1903) anadan olub.

**7 iyun 1917** – İtalyan əsilli Amerika aktyoru və müğənnisi Din Martin (Dean Martin – Dino Paul Crocetti; 1917-1995) anadan olub.

**8 iyun 1810** – Alman bəstəkarı, musiqişünas, pedaqoq Robert Şuman (Robert Schumann; 1810 – 29.7.1856) anadan olub. Simfoniya, sonata, konsert və digər musiqi əsərlərinin müəllifidir.

**8 iyun 1837** – Rus rəssamı İvan Kramskoy (1837-1887) anadan olub. Tarixi və portret janrında əsərlərin müəllifidir.

**8 iyun 1916** – İtalyan kinorejissoru Luici Komençini (Luigi Comencini; 1916-2005) anadan olub. Komediya janrında filmlər ("Çörək, məhəbbət və fantaziya", "Romalı gözəlçə") çəkib.

**Hazırladı: V.Orxan**

# İbtidai siniflərdə milli düşüncə və zövqün formalaşmasında musiqi tədrisinin rolu

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) "Şifahi ənənəli Azərbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi: orqanologiya və akustika" elmi-tədqiqat laboratoriyasının elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Könül Əhmədova-Yusifovanın Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "İbtidai siniflərdə milli düşüncə və zövqün formalaşmasında musiqi tədrisinin rolu" adlı elmi seminarı keçirilib.

Tədbiri universitetin "Musiqi və onun tədrisi texnologiyası" kafedrasının professoru Zemfira Abdullayeva açaraq iştirakçıları salamlayıb.

BMA-nın elmi-tədqiqat laboratoriyasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nuridə İsmayılzadə 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təşkil olunan seminarın mövzusunun aktuallığını qeyd edib. O, orta məktəblərdə musiqi fənninin tədrisi ilə bağlı vəsaitlərdə müşahidə olunan səhvlərin aradan qaldırılması baxımından seminarın faydalı olacağını deyib.

Məruzəçi Könül Əhmədova-Yusifova ibtidai siniflərin musiqi dərsliklərində (I-IV siniflər) mövzu tərtibatı ilə bağlı müsbət və mənfi cəhətlərdən, mövzular arasında pərakəndəlik, məlumatlardakı qeyri-dəqiqlik və s. barədə fikirlərini bölüşüb. Məsələn, dərslikdə qaval, tar, kamança şəklinin altında xanəndə, tar və kamança qeyd olunub. İ.S.Baxın orqan üçün tokkato və fuqasında "Bayatı-Şiraz" muğamından istifadə olunması, Avropa triosu və Azərbaycan triosu anlayışları, daha sonra muğam triosu əvəzinə musiqi triosu ifadələri və s. bu kimi yanlış məlumatlar qeyd olunur.

Musiqi alətləri ilə də bağlı pərakəndə məlumat verilir. Zərb alətləri bölümündə şagirdin 1-ci sinifdə keçdiyi alətlər təkrar olunur. Nəfəs alətləri bölümündə yalnız tütəyin şəkli təsvir olunur, simli alətlər bölümündə Avropa və milli alətlər təqdim olunur. Demək olar ki, əksər ümumtəhsil məktəblərində fortepiano aləti var, amma dərsliklərdə fortepiano aləti haqqında informasiya verilmir. Bunlar müəyyən bir sistemləşmə şəklində dərsliyə daxil olsa, daha yaxşı olardı.

Məruzəçi qeyd edib ki, təhsil pillələrinin heç birində, hətta musiqi müəllimliyi ixtisasında rəqs dərsi tədris olunmur. Bəs rəqsi musiqi müəllimi necə tədris etməlidir? Təklif olundu ki, bu, ya müəllimlər tərəfindən müştərək aparılmalı və ya ayrıca bir dərs kimi tədris olunmalıdır.

Dərsliklərdə bir bəstəkar haqqında müxtəlif bölmələrdə kiçik-kiçik informasiyalar verilir və bu da şagirdlərin qavraması üçün çətindir. Burada ardıcıl şəkildə, mövzu baxımdan sistemləşdirilmiş şəkildə məlumatlar öz əksini tapmalıdır. Daha sonra isə dərsdə keçilən bəstəkarlara uyğun olaraq mövzunun daxilində müəyyən paralellər, qarşılaşdırmalar aparılmalıdr.

Qeyd olunan məsələlərlə bağlı diskussiya aparılıb və ADPU ilə BMA əməkdaşlarının bu xüsusda birgə çalışması üçün razılığa gəlinib. ADPU-nun Musiqi və onun tədrisi texnologiyası kafedrasının professorları Zemfira Abdullayeva, Minarə Dadaşova və kafedranın müəllim heyəti maraqlı təkliflər irəli sürüblər. Qərara alınıb ki, müəyyən təkliflər paketi hazırlanıb Təhsil Nazirliyinə təqdim olunsun.

Seminarda ADPU-nun Musiqi və onun tədrisi texnologiyası kafedrasının heyəti, BMA-nın elmi-tədqiqat laboratoriyasının da əməkdaşları iştirak edirdi.

Sonda sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Nuridə İsmayılzadə seminar aparıcısına, Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllim-professor heyətinə, laboratoriya əməkdaşlarına öz təşəkkürünü bildirdi.

**Fidan Nəsirova**
**BMA-nın elmi-tədqiqat laboratoriyasının əməkdaşı**

№42 (2011)
7 iyun 2023
www.medeniyyet.az

# Azərbaycanlı dirijor Tailand Kral Orkestrini idarə edib




Tailand Kral Simfonik Orkestri ilk dəfə azərbaycanlı dirijor, Akademik Opera və Balet Teatrının musiqi rəhbəri, Əməkdar artist Əyyub Quliyevin idarəsi altında konsert verib. Konsert Tailandın paytaxtının ən mötəbər konsert salonlarından biri olan Banqkok Beynəlxalq Mədəniyyət Mərkəzinin Böyük zalında keçirilib.

Azərbaycanlı dirijorun bu ölkəyə səfəri musiqi kollektivinin rəhbərliyi və eyni zamanda orkestrin himayədarı olan Tailand şahzadəsi Sirivannavari Rayakanyanın dəvəti ilə gerçəkləşib.

Mürəkkəb musiqi proqramı ilə seçilən konsertin əsas hissəsi bu il 150 illiyi qeyd olunan görkəmli rus bəstəkarı Sergey Raxmaninovun yaradıcılığı ilə bağlı olub. Proqramda bəstəkarın fortepiano və orkestr üçün "Paqanini mövzusunda rapsodiya"sı səslənib. Solist Çinin tanınmış pianoçusu Ze-Ze olub.

Proqramda daha iki rus bəstəkarının – P.Çaykovskinin "İtalyan kapriççiosu" əsəri və İ.Stravinskinin "Atəş quşu" baletindən süita da ifa edilib.

Dinləyicilərin alqışlarını və istəyini nəzərə alan dirijor Əyyub Quliyev salonda əyləşən qonaqlara müraciət edərək, Azərbaycan musiqi ifaçılığını Tailandda ilk dəfə təqdim etməkdən qürur duyduğunu söyləyib və Kral Simfonik Orkestrinə minnətdarlığını bildirib.




Konsert bitdikdən sonra salonun foyesində gecəyə toplaşmış qonaqlarla azərbaycanlı dirijor Əyyub Quliyev və çinli pianoçu Ze-Zenin görüşü keçirilib. Onlar yerli sənətsevərlərə avtoqraf veriblər.

# Ölkəmiz Dünya Turizm Təşkilatı İcraiyyə Şurasının üzvü seçilib

BMT-nin Dünya Turizm Təşkilatının Avropa Komissiyasının Bolqarıstanın paytaxtı Sofiyada keçirilən 68-ci iclasında (31 may – 2 iyun) Azərbaycan təşkilatın İcraiyyə Şurasının üzvü seçilib.

Avropa regionu üzrə növbəti müddət üçün 5 vakant yerə Azərbaycan da daxil olmaqla 11 ölkə namizədliyini irəli sürüb. Səsvermə nəticəsində Azərbaycan və Avropa İttifaqının 4 ölkəsi – Litva, Çexiya, İtaliya, Bolqarıstan İcraiyyə Şurasında növbəti 4 il müddətinə təmsilçilik hüququ qazanıb.

İclasda çıxış edən Dövlət Turizm Agentliyinin (DTA) sədri Fuad Nağıyev Azərbaycanın namizədliyini dəstəkləyən bütün ölkələrə təşəkkürünü bildirib. Qeyd edib ki, Azərbaycan 2001-ci ildə Dünya Turizm Təşkilatının tamhüquqlu üzvü olmasından etibarən üzv dövlətlərlə uğurlu tərəfdaşlıq və əməkdaşlıq əlaqələrini genişləndirib və gələcək fəaliyyətində də İcraiyyə Şurasının işinin səmərəliliyinə töhfə verəcək. DTA sədri qlobal turizmin gələcəyinin zəruri tədbirlərin birgə həyata keçirilməsindən asılı olduğunu diqqətə çatdırıb.

İclasda Azərbaycanın İspaniya Krallığı və Andorra Knyazlığındakı səfiri, eyni zamanda Dünya Turizm Təşkilatı yanında daimi nümayəndəsi Ramiz Həsənov və ölkəmizin Bolqarıstandakı səfiri Hüseyn Hüseynov da iştirak ediblər.

Qeyd edək ki, Dünya Turizm Təşkilatı İcraiyyə Şurasına üzvlər 4 il müddətinə seçilir. İki ildən bir üzvlərin yarısı yenilənir. Təşkilatın mənzil-qərargahının (Madrid) ev sahibi ölkəsi kimi İspaniya İcraiyyə Şurasında daimi üzvlük hüququna malikdir. Hazırda İcraiyyə Şurasında 34 üzv-ölkə var.

# Türkiyə "mavi bayraq"lı çimərlik reytinqində dünya üçüncüsüdür

## "Narıncı bayraq" kampaniyası isə yeni başlayır...

Türkiyənin 551 çimərliyi beynəlxalq "Mavi bayraq" mükafatına layiq görülüb. Bu barədə "Mavi bayraq" beynəlxalq jürisinin 2023-cü il üçün mükafatçılar siyahısında bildirilir.

"Mavi bayraq" reytinqi hər il çimərlik mövsümü ərəfəsində mənzil-qərargahı Kopenhagendə (Danimarka) yerləşən Ekoloji Təhsil Fondu (FEE) tərəfindən elan edilir. Builki reytinqdə Türkiyə "mavi bayraq"lı çimərlik sayına görə İspaniya və Yunanıstandan sonra üçüncü yeri tutub. Dünya turizmində böyük payı olan İtaliya və Fransa bu sıralamada 4-cü və 5-ci yerdədir.

"Mavi bayraq" reytinqində ilk üçlüyə düşmək Türkiyə turizmi üçün böyük uğurdur. Bu mükafat 1987-ci ildən etibarən çimmək üçün ən təhlükəsiz və suyu ən yüksək təmizlik standartlarına uyğun gələn çimərliklərə verilir. Mükafata layiq görülən çimərliklərdə onun loqosu olan mavi bayraqlar dalğalanır. Bu, turist cəlb etmək üçün ən vacib göstəricilərdən biridir.



Türkiyədə sözügedən proqram 1993-cü ildən tətbiq edilir. Proqramda çimərliklər üçün ümumilikdə 33 meyar nəzərdə tutulub. Əsas meyarlardan biri mövsüm boyu 15 gündən bir suyun analizinin aparılması və müvafiq standartlara cavab verməsidir.

Türkiyədə "mavi bayraq" sayına görə birinci yerdə Antalyadır, bölgədə 231 çimərlik bu mükafata layiq görülüb.

***

Bu arada Türkiyənin turizm sektorunda hədsiz qida israfına qarşı da tədbirlər görülməyə başlanıb. Ölkənin hotellərində "narıncı bayraq" kampaniyası həyata keçirilir. Məqsəd "hər şey daxil" ("all inclusive") konsepti ilə işləyən hotellərdə yemək israfını (daha dəqiqi, yeyilməyib zibilliklərə atılmasını) minimuma endirməkdir.

Hesablamalara görə, Türkiyədə ildə 10 milyon ton yeyilməmiş qida zibilliklərə atılır və bunun təxminən 40 faizi hotellərin payına düşür. Türkiyə bu israfçılıqda dünyanın öndə gedən ölkələrindən biridir. Bu eyni zamanda ekoloji baxımdan ciddi problemdir. Kampaniyada qida israfına ən az yol verən hotellərə "narıncı bayraq" təqdim olunacaq.

**V.Kamal**




Olaylar, faktlar (5–8 iyun)

### 419 il əvvəl...

**8 iyun 1604-cü ildə** növbəti Səfəvi-Osmanlı müharibəsi (1603-1612) gedişində I Şah Abbasın qoşunları İrəvan qalasını ələ keçirib. Osmanlının nəzarətindən çıxan İrəvanın idarəçiliyi Əmirgünə xan Qacara verilib. Bundan bir qədər əvvəl Səfəvi qoşunları Təbrizi Osmanlıdan geri almışdı. 1580-ci illərdə tərəflər arasındakı müharibədə indiki Azərbaycanın əksər əraziləri (Lənkəran-Astara bölgəsi istisna olmaqla) Osmanlının nəzarətinə keçmişdi.

### 359 il əvvəl...

**6 iyun 1664-cü ildə** Britaniya ilə Niderland arasında Amerikadakı müstəmləkələrə nəzarət uğrunda müharibə başlayıb. İlk döyüşdə Britaniya qoşunları qalib gələrək Nyu-Amsterdam şəhərini ələ keçiriblər. İngilislər şəhərin adını dəyişərək Nyu-York qoyublar.

### 118 il əvvəl...



**7 iyun 1905-ci ildə** Norveç-İsveç uniyasına (ittifaq) son qoyulub. Norveç parlamenti (Stortinq) ölkədə keçirilmiş referendumun nəticələrini nəzərə alaraq ittifaq sazişini pozmaq barədə qərar çıxarıb. Norveç müstəqil krallıq olub. Norveç-İsveç uniyası 1814-cü ildə iki ölkə arasında müharibənin nəticəsi olaraq imzalanmışdı. Müharibədə qalib gələn İsveç Norveçi ittifaqa məcbur etmişdi.

### 103 il əvvəl...

**6 iyun 1920-ci ildə** Zaqatalada sovet hakimiyyətinə qarşı üsyan başlanıb. Molla Hafiz Əfəndinin başçılıq etdiyi üsyançılar Zaqatala qalasını, Qaxı və ətraf əraziləri ələ keçiriblər. Rusiyanın XI ordusunun bölgəyə yeridilən hissələri iyunun 16-da üsyanı yatırıb. Hafiz Əfəndi dəstəsi ilə Gürcüstan ərazisinə keçib.

### 76 il əvvəl...

**5 iyun 1947-ci ildə** ABŞ-nin dövlət katibi Corc Marşall Harvard Universitetində etdiyi çıxışında Avropa dövlətlərinə yardım proqramını açıqlayıb. Tarixə "Marşall planı" kimi düşən bu proqrama əsasən, ABŞ hökuməti 4 il ərzində Avropanın 16 dövlətinə (SSRİ və onun təhriki ilə Şərqi Avropanın sosialist düşərgəsi yardımdan imtina etdi) ümumilikdə 13 milyard dollar yardım göstərdi.

### 68 il əvvəl...

**5 iyun 1955-ci ildə** "Varşava müqaviləsi" qüvvəyə minib. 1955-ci il mayın 14-də Varşavada SSRİ və daha 7 sosialist ölkəsi tərəfindən bağlanan pakt NATO alyansına cavab olaraq yaradılmışdı. 1991-ci il iyulun 1-də "Varşava müqaviləsi" özünü buraxdı.

### 56 il əvvəl...



**5 iyun 1967-ci ildə** Yaxın Şərqdə "Altıgünlük müharibə" başlanıb. İsrail ordusu Misir, Suriya, İordaniya və İraqın birləşmiş qüvvələrini qısa müddətdə (10 iyun) məğlub edərək, Misirin Sinay yarımadasını, Suriyanın Qolan təpələrini ələ keçirdi. Misir hökuməti ABŞ və Britaniyanın İsraili dəstəkləməsinə etiraz olaraq Süveyş kanalını bağladı. Dünya gəmiçiliyi üçün böyük əhəmiyyət daşıyan kanal yalnız 1975-ci ildə açıldı. 1979-1980-ci illərdən Misirlə aparılan Kemp-Devid (ABŞ) danışıqlarına əsasən, İsrail Sinayı tərk etdi.

### 51 il əvvəl...

**5 iyun 1972-ci ildə** Stokholmda (İsveç) ətraf mühitin mühafizəsi üzrə beynəlxalq konfrans başlayıb. Həmin il dekabrın 16-da BMT Baş Assambleyasının 27-ci sessiyasında 5 iyun Dünya Ətraf Mühit Günü (World Environment Day) kimi təsis olunub.

### 31 il əvvəl...

**7 iyun 1992-ci ildə** Azərbaycanda növbədənkənar prezident seçkiləri keçirilib. Mərkəzi Seçki Komissiyasının elan etdiyi rəsmi məlumata görə, Azərbaycan Xalq Cəbhəsinin sədri Əbülfəz Elçibəy 59,4 faiz səslə qalib gəlmişdi.

**Hazırladı: V.Orxan**

# "Hədis" animasiya filmi Annesi festivalında nümayiş olunacaq

Bu günlərdə YARAT Müasir İncəsənət Mərkəzində premyerası keçirilən "Hədis" qısametrajlı animasiya filmi Annesi Beynəlxalq Animasiya Filmləri Festivalının müsabiqə proqramına daxil edilib. Animasiya sahəsində dünyanın ən böyük festivalı 11-17 iyunda Fransanın Annesi şəhərində keçiriləcək.




Azərbaycan Animasiya Assosiasiyasından bildiriblər ki, rejissoru Nəzrin Ağamalıyeva olan "Hədis" filmi simvolik olaraq qarğaların hökm sürdüyü ədalətsiz dünyada haqq-ədalət uğrunda mübarizə aparan gənc qız haqqındadır. Film 2022-ci ilin sentyabrın 21-də İranda etiraz aksiyaları zamanı təhlükəsizlik qüvvələri tərəfindən qətlə yetirilmiş 22 yaşlı Azərbaycan türkü Hədis Nəcəfiyə həsr edilib. Ekran əsəri İranda gender, etnik və mədəni ayrı-seçkiliklə mübarizə aparanlara ithaf olunub.

YARAT-da keçirilən premyeradan əvvəl muğam musiqisi səslənib. Tarzən Əfqan İsgəndərov, xanəndə Mirəli Sarızadə, kamança ifaçısı Fərid Babayev "Ayrılıq" və "Qaragilə" mahnılarını ifa ediblər.

Filmin nümayişindən sonra yaradıcı kollektivlə sual-cavab sessiyası olub.

Builki Annesi Beynəlxalq Animasiya Filmləri Festivalının müsabiqəsinə 112 ölkədən 3 mindən çox film təqdim edilib. Qısametrajlı kateqoriyada yarışa "Hədis" də daxil olmaqla cəmi 71 film layiq görülüb.

Filmin prodüseri Rəşid Ağamalıyev, məsləhətçisi Məsud Pənahi, aparıcı animatoru Andrea Szelesova, montajçı Jorge Sánchez Calderon, bəstəkar Ondrej Zavadildir. Filmi səsləndirən Zöhrə Kərimi, redaktor Rafiq Məmmədlidir. Filmin partiturasında Əməkdar artist Sevda Ələkbərzadənin ifasında mahnı səslənir.

"ANİMAFİLM Studio"nun istehsalı olan "Hədis" filmi "Şimali Kaliforniya Azərbaycan Mədəniyyəti Mərkəzi"nin dəstəyi ilə çəkilib.

# Bəstəkar List, şair Petöfi, futbolçu Puşkaş...

## Macarıstan paytaxtında Madam Tüsso Muzeyinin sərgisi

Mum fiqurları ilə dünyada məşhur olan Madam Tüsso Muzeyinin (London) növbəti ekspozisiyası bu dəfə Macarıstanın paytaxtı Budapeştdə açılıb. Sərgidə 51 mum heykəl nümayiş olunur.



Xarici tarixi şəxsiyyətlər və məşhurlarla yanaşı, burada macar bəstəkar Ferens List, dövlət xadimi Layoş Koşut, "ən dahi macar" kimi tanınan şair Şandor Petöfi, bütün zamanların ən yaxşı macar futbolçusu sayılan, 1954-cü il dünya çempionatının gümüş mükafatçısı Ferens Puşkaşın mum fiqurları da var.

Böyük Britaniyanın Budapeştdəki səfiri Pol Foks deyib ki, muzeyin qastrolları həm dünyaca tanınmış sərginin genişləndirilməsini, həm də Budapeştin zəngin mədəni irsini və dinamik ruhunu əks edir. Sərginin interyerlərində bir sıra ölkənin müxtəlif rəmzi binaları və abidələri təqdim olunub. Ziyarətçilər Buda qəsrinin tunelində gəzə, Dunay sahilində ulduzlara tamaşa edə, Balıqçı qalasında helikopter çəkilişlərinə baxa bilərlər.

Bir çox digər macar və xarici xadimlərlə yanaşı, Budapeştdəki Madam Tüsso sərgisində Harri Gudini, Bela Luqoşi, Kral Matyaş, Şahzadə Sissi, Kral Müqəddəs İştvan, eləcə də Papa Fransisk, mərhum Kraliça II Elizabet, Beyonse, Sandra Bullok, Corc Kluni, Tom Kruz, Penelopa Kruz, Si Tsinpin, Leonardo Di Kaprio, Robert Dauni (kiçik), Ledi Qaqa, Ronald Reyqan, Stiven Spilberq və Donald Tramp təqdim olunublar.

Standart biletin qiyməti təqribən 30 avrodur.

Madam Tüsso Muzeyi 1835-ci ildə Londonda fransız heykəltaraş, mum fiqurlar ustası Maria Tüsso tərəfindən təşkil edilib. Hazırda muzeyin dünyanın 20-dən çox şəhərində filialları fəaliyyət göstərir.

## Elan

"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC tərəfindən Azərbaycan Televiziyasının solisti Səbinə Ərəbliyə verilmiş 0016471975 seriyalı buraxılış sənədi itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5047. **Sifariş:** 1484
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641